# Bölmələrimiz itki verməyib

Ermənistan silahlı qüvvələri artilleriya qurğularından mövqelərimizi atəşə tutub



**Mayın 12-si saat 18:00 radələrində Ermənistanın silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun üzbəüz mövqelərini D-30 topları və minaatanlardan atəşə tutub.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

"Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri cavab tədbirləri görülür. Bölmələrimiz itki verməyib", məlumatda deyilir.



# Milli Məclisin Heydər Əliyevə həsr olunmuş xüsusi iclası olacaq

**Milli Məclisin növbəti iclasının tarixi məlum olub.**

Bu barədə dünən parlamentin sədri Sahibə Qafarova məlumat verib.

Milli Məclisin növbəti iclası mayın 16-da keçiriləcək. Bu, Ümummilli lider Heydər Əliyevə həsr olunmuş xüsusi iclas olacaq.


❒ № 82 (5843) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 may 2023-cü il (şənbə)





# Döyüş hazırlığını izlədilər

Türkiyə nümayəndə heyəti azad edilmiş ərazilərdə Komando və digər hərbi hissələrdə olub

**Türkiyə Respublikası Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərliyi ilə ölkəmizdə səfərdə olan türkiyəli nümayəndə heyəti Ermənistan silahlı birləşmələrinin işğalından azad edilmiş ərazilərimizi ziyarət edib və burada dislokasiya olunan bölmələrimizdə olublar.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, qonaqlara işğal zamanı Ermənistan silahlı birləşmələri tərəfindən törədilən vandalizmin nəticələri və dağıntılar, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.


(səh.2)




# Brüssel görüşünə iki gün qalır

Kreml öz emissarını Bakıya və İrəvana göndərdi

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüş zamanı Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, sülh sazişi üzrə danışıqlar, eləcə də regionda cari vəziyyət müzakirə mövzusu olub. C.Bayramov müzakirələr zamanı sülh sazişi üzrə danışıqlarda ölkəsinin mövqeyi və prioritetlərini, eləcə də gələcək gözləntilərini diqqətə çatdırıb. O, eyni zamanda Ermənistanın sülh prosesinə və danışıqlara "xələl gətirən təxribatçı addımları" barədə qarşı tərəfə məlumat verib. İqor Xovayev isə regionda sülh və sabitliyin təmin olunmasının olduqca vacib olduğunu və bu istiqamətdə Rusiya tərəfinin hər cür dəstəyə hazır olduğunu bildirib.


(səh.2)


# Plan alınmadı

## Kılıçdaroğlu Rusiya amilini ortaya atmaqla Qərbdən daha güclü dəstək almağa çalışır



"Məhərrəm İncənin geri çəkilməsi Ərdoğanın seçki texnologiyasına xidmət edən komponent idi"

**Türkiyədə prezidentliyə namizəd, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu "Tvitter" hesabında Rusiyaya qarşı ittihamlar səsləndirib.**

Kılıçdaroğlu siyasətçilərlə bağlı yayılan və montaj olunduğu bildirilən videoların arxasında Rusiyanın olduğunu açıqlayıb.

Hətta qeyd edib ki, əgər Rusiya 15 maydan sonra Türkiyə ilə dostluq etmək istəyirsə, əlini türkün dövlətindən çəkməlidir.


(səh.4)


# Fransa Ermənistanı silahlandırmağa çalışır

Millət vəkilləri Fransanın addımlarını riyakarlıq adlandırdı



**Milli Məclisin növbəti plenar iclası keçirilib və gündəlikdə olan 22 məsələ müzakirə olunub. Parlament sədri Sahibə Qafarova mayın 11-də Ermənistanın sərhəddə törətdiyi təxribatdan danışıb.**

Spiker qeyd edib ki, Ermənistanın təxribatında əsas məqsəd sülh danışıqlarına mane olmaqdır. Onun sözlərinə görə, bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.


(səh.2)


# Düşmən bizi yenə müharibəyə sürükləyir

Toqquşmaların böyükmiqyaslı hərbi əməliyyatlara çevrilməsi Ermənistan tərəfinə sərf edir



**Mayın 10-da Ermənistanın sərhəddə törətdiyi təxribat nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbçisi Orxan Novruzalizadə Ağstafada dəfn olunub.**

Şəhid anadan olduğu Vurğun qəsəbəsində, qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimdə şəhidin yaxınları, hərbçilər, rayon rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edib. Qeyd edək ki, Orxan Novruzalizadə 1998-ci il təvəllüdlü Ağstafa rayonunun Vurğun qəsəbəsində anadan olub.


(səh.4)




# İyunda Qurban bayramıdır

12 gün iş olmayacaq

**İyun ayında bayramlarla əlaqədər qeyri-iş günlərinin sayı açıqlanıb.**

"Şərq" xəbər verir ki, ölkədə 15 iyun - Milli Qurtuluş günü kimi qeyd edilir. Buna görə də cümə axşamı günü iş olmayacaq.

26 İyun - Silahlı Qüvvələr Günüdür. İyunun 28, 29-u Qurban bayramı günləri müəyyən edilib. Həmin günlər bayram olduğu üçün qeyri-iş günü hesab edilir.

Beləliklə, iyunda şənbə və bazar günləri də daxil olmaqla 12 gün qeyri-iş günü olacaq.

# Vətən müharibəsi qazisi ağır xəstəlikdən vəfat etdi

Bakıxan Babayev Bahçeşehir Universitetində magistr təhsili alırdı



**Vətən müharibəsi qazisi Bakıxan Babayev vəfat edib.**

Bu barədə onun yaxınları məlumat yayıb.

Bildirilib ki, B.Babayev müharibədən sonra xərçəng xəstəliyinə tutulub. Bakıxan uzun müddət Bakıda və İstanbulda müalicə olunsa da, həyatını xilas etmək mümkün olmayıb. O, Azərbaycana gətirildikdən sonra dünyasını dəyişib.

*Qeyd edək ki, qazi Bahçeşehir Universitetində magistr təhsili alırdı.*

**Allah rəhmət eləsin!**

# 3 nəfər vəfat edib

19 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 19 yeni yoluxma faktı qeydə alınıb, 27 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 831 638 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 251 nəfər müalicə olunaraq sağalıb, 10 265 nəfər vəfat edib, aktiv xəstə sayı 122 nəfərdir. Ölkədə son sutka ərzində 851, hazırkı dövrədək isə 7 602 283 test aparılıb.*



# Gürcüstanla quru sərhədi uzun müddət açılmayacaq

Azərbaycan hökuməti doğru qərar verib, artıq bu məsələ geosiyasi vəziyyətdən asılıdır


(səh.5)




# Proses ləngisə də, yekun sülhə imza atılacaq

**Toğrul İsmayıl:** "Çünki vaxtı çox uzatmaq Ermənistana sərf etmir və uzandıqca onlar daha çox zərər görürlər"


(səh.3)



## "Vaqner"in rəhbərindən etiraf

### Rusiya Baxmutda 5 kvadrat kilometr ərazi itirib

**"Vaqner" özəl hərb şirkətinin rəhbəri Yevgeni Priqojin növbəti dəfə Rusiya Müdafiə Nazirliyini sərt tənqid edib.**

APA CNN-ə istinadən xəbər verir ki, Priqojin Müdafiə Nazirliyinin Baxmutun şimalında geri çəkilməsi ilə bağlı bəyanatının hiyləgərlik olduğunu bildirib və qurumu yalan danışmağa son verməyə çağırıb. O, Rusiya qüvvələrinin Baxmutun şimalından qaçdığını və bunun yenidən qruplaşma deyil, qeyri-taktiki geri çəkilmə olduğunu deyib.

**Priqojin əlavə edib ki, Rusiya qoşunlarının Baxmutun şimalından geri çəkilməsi "təkcə bu gün" 5 kvadrat kilometr ərazinin itirilməsi deməkdir:**

"Ukrayna bütün taktiki yüksəklikləri tutaraq Baxmutdan 500 metr məsafədə olacaq". Priqojin Ukrayna qüvvələri ilə gərgin döyüşlərin getdiyi, Baxmuta aparan Çasov Yar yolunu da tam azad etdiklərini deyib. "Vaqner" rəhbəri Rusiya Müdafiə Nazirliyini dəstəyinin çatışmazlığına dair əvvəlki şikayətlərini bir daha təkrarlayıb.

## "Sən bunları mənim qədər tanımırsan"

### Ərdoğan Kılıçdaroğlunun "Rusiya seçkilərə müdaxilə edəcək" iddiasına cavab verib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbul Sultanqazidə seçiciləri ilə görüşüb.**

APA xəbər verir ki, seçki mitinqində mühüm açıqlamalar verən Ərdoğan CHP lideri Kamal Kılıçdaroğlunun "Rusiya seçkilərə müdaxilə edəcək" iddiasına cavab verib.

"Kılıçdaroğlunun dediyinə görə, Türkiyədə seçkiləri Rusiya idarə edir. Ayıbdır! İndi mən də durub desəm ki, seçkiləri ABŞ idarə edir, Almaniya idarə edir, Fransa idarə edir, İngiltərə idarə edir. Nə deyəcəksən? Sən bunları mənim qədər tanımırsan. 20 ildir, mən bu adamlarla görüşürəm, bir masada otururam, danışıqlar aparıram. Mən bu adamlarının ruhuna belə bələdəm! Sən bunları haradan tanıyırsan axı?", - Ərdoğan qeyd edib.

# Brüssel görüşünə iki gün qalır

### Kreml öz emissarını Bakıya və İrəvana göndərdi



"İqor Xovayevi bölgəyə göndərənlərin məqsədi tərəflərin Brüssel və Kişinyovda hansı razılaşmalar əldə ediləbiləcəyini ilk mənbədən öyrənməkdir"

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Görüş zamanı Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi, sülh sazişi üzrə danışıqlar, eləcə də regionda cari vəziyyət müzakirə mövzusu olub. C.Bayramov müzakirələr zamanı sülh sazişi üzrə danışıqlarda ölkəsinin mövqeyi və prioritetlərini, eləcə də gələcək gözləntilərini diqqətə çatdırıb. O, eyni zamanda Ermənistanın sülh prosesinə və danışıqlara "xələl gətirən təxribatçı addımları" barədə qarşı tərəfə məlumat verib. İqor Xovayev isə regionda sülh və sabitliyin təmin olunmasının olduqca vacib olduğunu və bu istiqamətdə Rusiya tərəfinin hər cür dəstəyə hazır olduğunu bildirib. Xatırladaq ki, İqor Xovayev mayın 10-da İrəvanda Ermənistanın Baş naziri Nikol Paşinyan və digər yüksəkvəzifəli şəxslərlə müzakirələr aparıb. O, İrəvanda səfərdə olarkən Azərbaycan və Ermənistanın delimitasiya olunmamış sərhədinə ağır silahlardan istifadə edilməklə qarşılıqlı atışmalar olub. Paşinyan-Xovayev görüşü zamanı Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycanın Qarabağ iqtisadi rayonundakı vəziyyət, eləcə də Laçın dəhlizi ilə bağlı məsələlər müzakirə edilib. Sonuncu dəfə Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi İqor Xovayev 2023-cü ilin fevralında Ermənistanda olub.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla Brüssel görüşünə iki gün qalmış Kreml öz emissarını Bakıya və İrəvana göndərdi:** "Rusiya xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev əvvəlcə Bakıya gəlib. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və İqor Xovayev sülh sazişi üzrə danışıqlar barədə fikir mübadiləsi apardılar. İqor Xovayevi bölgəyə göndərənlərin məqsədi tərəflərin Brüssel və Kişinyovda hansı razılaşmalar əldə ediləbiləcəyini ilk mənbədən öyrənməkdir. Kreml açıq-aşkar Azərbaycan və Ermənistan liderlərinin Brüssel və Kişinyov görüşlərindən narahatdır. Bu mənada sərhəddəki son təxribatların təsadüf olmadığına dair ciddi şübhələr var".

İsmayıl



## Döyüş hazırlığını izlədilər

### Türkiyə nümayəndə heyəti azad edilmiş ərazilərdə Komando və digər hərbi hissələrdə olub

**Türkiyə Respublikası Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərliyi ilə ölkəmizdə səfərdə olan türkiyəli nümayəndə heyəti Ermənistan silahlı birləşmələrinin işğalından azad edilmiş ərazilərimizi ziyarət edib və burada dislokasiya olunan bölmələrimizdə olublar.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, qonaqlara işğal zamanı Ermənistan silahlı birləşmələri tərəfindən törədilən vandalizmin nəticələri və dağıntılar, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında aparılan yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.

Sonra nümayəndə heyəti ərazidə şəhidlərin xatirəsinə ucaldılan abidə kompleksinin önünə gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər.

Komando və digər hərbi hissələri ziyarət edən türkiyəli nümayəndə heyəti hərbi qulluqçular üçün yaradılan xidməti döyüş və sosial-məişət şəraiti ilə tanış olublar.

Bölmələrimizin arsenalında olan döyüş texnikası ilə tanışlıqdan sonra nümayəndə heyəti, təlim mərkəzində hərbi qulluqçuların nümunəvi çıxışlarını və döyüş hazırlığı məşqələrini izləyib.

Torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün təmin olunması uğrunda döyüşlərdə uğurla iştirak edən hərbi birliklərin keçdiyi döyüş yolu haqqında qonaqlara brifinq təqdim edilib.

Aygün

## ABŞ-a səfər qaydalarında dəyişiklik edilib

**ABŞ-a səyahət qaydalarında dəyişiklik edilib. Bu barədə APA-ya ABŞ səfirliyindən bildirilib.**

*Qeyd olunub ki, qeyri-mühacir vizaları ilə ABŞ-a hava yolu ilə səyahət edən vətəndaşlardan artıq COVID-19-a qarşı tam peyvənd olunmaları barədə sənəd tələb olunmur.*




## "Bundan sonra nə olacağını görəcəyik"

### Akşener Məhərrəm İncənin geri çəkilməsindən danışdı



**"İyi" Partiyanın sədri Meral Akşener "Star News"un baş redaktoru Nazlı Çelikin suallarını cavablandırıb.**

"Şərq" xəbər verir ki, Məmləkət Partiyasının sədri Məhərrəm İncənin prezidentliyə namizədliyindən geri çəkilməsini dəyərləndirən Akşener qərara hörmətlə yanaşdığını bildirib.

"Onun istefasına hörmətlə yanaşıram. Amma onu istefaya aparanları, belindən aşağı vuranları təəssüflə izlədim. Bundan sonra nə olacağını görəcəyik. Ona görə də ümid edirəm ki, hər şey yaxşı olacaq".

Akşenerin Məhərrəm İncənin, "Onların heç bir bəhanəsi olmasın, əks halda seçkini uduzanda seçki səhəri bütün günahı bizim üzərimizə atacaqlar" açıqlamasına da bir cavabı vardı.

Akşener, "Biz "Millət İttifaqı" olaraq seçicinin ürəyinə layiqincə girə bilmiriksə, bu vəziyyətdə heç kim günahkar deyil. "O günahkardır, bu günahkardır" deyə bir məsələ yoxdur" deyə sözlərinə əlavə edib.

Akşener həmçinin seçkidə qalib gəldikləri təqdirdə hansı nazirliyin hansı partiyaya veriləcəyi ilə bağlı söhbət aparılmadığını da bildirib.

Turan

## İsveçli səyyahlar Kəlbəcərdə olub

### Daha sonra Laçına səfər ediblər



**İsveçin beynəlxalq səyahətçilər elitasının cəmləşdiyi "Club 100" təşkilatının heyəti bu gün Kəlbəcər rayonuna səfər edib.**

APA-nın Qarabağ bürosu xəbər verir ki, nümayəndə heyəti Kəlbəcərdə işğal dövründə ermənilərin törətdiyi dağıntıları izləyib. Onlara Kəlbəcərin tarixi, turizm potensialı barədə məlumat verilib.

Heyət Kəlbəcərdən sonra Laçına səfər edib.

Qeyd edək ki, nümayəndə heyəti ötən gün Xocavənd, Füzuli və Ağdamda olub. Heyətin 3 gün ərzində həmçinin Tərtər, Zəngilan-Cəbrayıl rayonlarına səfər etmələri planlaşdırır.

Bu səfər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması üçün müstəsna əhəmiyyət daşıyır. Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels" Klubunun geniş tərkibdə heyətlərinin ötən 2 ildə 6 dəfə Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunub. Onlardan 1-i 2021-ci ildə, 4-ü isə 2022-ci ildə, 1-i isə 2023-cü ildə reallaşdırılıb. İsveçdən olan səfər bu qəbildən olan sayca 7-ci səfərdir. Bu səfərlər çərçivəsində 200-dən çox dünyada tanınan səyyah Qarabağ və Şərqi Zəngəzurla yerində tanış olublar. Hazırda İsveçdən gəlmiş heyətdə 30 nəfərdən çox beynəlxalq səyahətçi var.



# Fransa Ermənistanı silahlandırmağa çalışır

### Millət vəkilləri Fransanın addımlarını riyakarlıq adlandırdı

**Milli Məclisin növbəti plenar iclası keçirilib və gündəlikdə olan 22 məsələ müzakirə olunub. Parlament sədri Sahibə Qafarova mayın 11-də Ermənistanın sərhəddə törətdiyi təxribatdan danışıb.**

Spiker qeyd edib ki, Ermənistanın təxribatında əsas məqsəd sülh danışıqlarına mane olmaqdır. Onun sözlərinə görə, bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**"Avropa ölkələrinə çağırış etməliyik ki, Fransaya yerini göstərsin"**

Deputat Elşad Mirbaşir deyib ki, Fransa Ermənistandakı səfirliyinə yeni hərbi attaşe təyin etmək niyyətindədir. Onun sözlərinə görə, yeni hərbi attaşenin məqsədi Ermənistana müasir Fransa silahlarının verilməsi olacaq: "Bu mövqeyin səbəbi nədir? Fransa Ermənistanı silahlandırmağa çalışır. Bu, riyakarlıqdır. Fransanın yanaşması bütövlükdə Avropanın maraqlarıyla ciddi ziddiyyət təşkil edir. Bu baxımdan biz Avropa ölkələrinə də çağırış etməliyik ki, Fransaya yerini göstərsin. Azərbaycanın bu məsələlərlə bağlı mövqeyi qətiyyətlidir".

Spiker bildirib ki, Fransanın Azərbaycandakı səfiri ilə dünən görüşüb: "Bu məsələləri xatırlatdım. Beynəlxalq təşkilatlarda olan deputatlar da bu məsələləri mütləq qaldırsınlar".

**"Sülh müqaviləsi" bu il imzalanmasa, Paşinyan sarkisyanlaşacaq, koçaryanlaşacaq"**

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Nikol Paşinyanın son illər bütün xarici səfərlərində, o cümlədən son dəfə Çexiyada ölkəmizi "anti-demokratiklik"də suçlaması, Qərbin "Demokratiya sammitləri"ndə Ermənistana tribuna verilməsi ölkəmiz əleyhinə yeni planlardan və qarşıdurma məqsədlərindən xəbər verir. Parlament üzvünün sözlərinə görə, işğalçı və separatizmə dəstək verən dövlətlər demokratik sayıla bilməz: "Ötən il 12-14 sentyabr toqquşması zamanı Nikol Paşinyan "müharibədə məğlub olsaq da, ədalətli seçki keçirirk" bəyanatları ilə Avropa dövlətlərini Azərbaycana təzyiq göstərməyə çağırdı. Halbuki 3 ildir uzanan "sülh müqaviləsi" bu il imzalanmasa, sərhədlər açılmasa, Paşinyan sarkisyanlaşacaq, koçaryanlaşacaq. Ermənistanı "demokratiya mayakı" kimi tərif edənlərə Azərbaycan vətəndaşı olmaq istəyən şəxsə qaldırılan cinayət işini xatırladırıq. Xankəndi erməniləri ilə birgəyaşayışdan danışan kimi bizi hüquq və azadlıqları pozmaqda suçlayırlar. "Human Rihgts Watch" son 30 ildə Qarabağın demokratiya və azadlıq indeksini ölkəmizdən irəliyə qoyub. Əslində, belə hesabatlar və "Demokratiya zirvələri" işğalçılığın, separatizmin qorunmasına xidmət edir. Misirə, Liviyaya, Yaxın Şərqə inqilab ixrac edənlər yüz minlərlə insanı demokratiyaya görə qətlə yetirdilər. İndi Gürcüstan həbsxanasında can savaşı verən Mixeil Saakaşvilini ölüm ayağında tərk edənlər, onu diktaturaya qarşı simvol adlandıranlar indi də Paşinyandan ikinci Saakaşvili düzəldirlər. "Wikileaks" sənədləri göstərir ki, on illərlə Amerika və Qərb liderləri ölkəmizin təhlükəsizliyinə təminat vermədən, işğala son qoymadan diktə altında hakimiyyət qurmağın xaosa səbəb olacağına inandırmağa çalışıb. Əfqanıstanda 20 il ərzində 800 milyard dollar xərcləyəndən sonra qurulan ordu və hökumətin cəmi bir həftə tab gətirdiyini heç kəs unutmur".




**"Ölkəmizdə seçkilər, insan haqları sahəsində görüləsi iş hələ çoxdur"**

Z.Oruc vurğulayıb ki, geni modifikasiya olunan meyvələr kimi demokratiya idxal olunanda süni, qanlı və davamsız olur: "Silahlı və ya məxməri çevrilişlərlə hakimiyyətə gələnləri "Demokratiya zirvələri"nə çağıranlar, dünyanı siyasi qütblərə ayıranlar bir də onda ayıldılar ki, Rusiya da onlar kimi Ukraynada özünə təhlükə törətməyən hakimiyyət qurur. 100 minlərlə insanın ölümünə səbəb olan müharibəyə xərclədikləri 150 milyard dollarlıq hərbi yardımı dağılmamış Ukraynaya versəydilər, demokratiya ixracına ehtiyac qalmazdı. Əlbəttə, ölkəmizdə seçkilər, insan haqları və demokratik azadlıqlar sahəsində görüləsi iş hələ çoxdur. Lakin 90-cı illərdə beynəlxalq hesabatlarda bizə ön yeri verənlər, torpaqlarımız işğala uğrayanda ermənilərə yardım etdilər. 2020-ci ildə isə ordumuz Şuşanı fəth edərkən, xarici indekslərin heç bir əhəmiyyəti qalmadı. Bizə işğal və qeyri-sabitlik doğuran "demokratiya" əvəzinə, azadlıq və torpaq bütövlüyü gətirən təhlükəsizlik gərəkdir. Əslində 44 günlük müharibə həm də Ali Baş Komandan İlham Əliyevə ümumxalq səsverməsiydi və bunun milli iradəni göstərən ən böyük seçim olduğunu hamı bilməlidir".

**"Qırmızı diploma mütləq üstünlük verilməli, qanuna dəyişiklik edilməlidir"**

Parlamentin sədr müavini Fəzail İbrahimli bildirib ki, onların arasında ali məktəbi qırmızı diploma bitirənlər olub: "Bu, çox böyük stimul idi. Qırmızı diplomla məzun olanlara icazə verirdilər ki, ali məktəbi bitirən kimi aspiranturaya imtahan versin". Vitse-spiker deyib ki, bu gün qırmızı diplomların dəyəri itib: "Bu diplom sonradan qızlar üçün cehizə, oğlanlar üçün arxivə çevriləcəksə, sual yaranır ki, tələbə niyə cəhd edib qırmızı diplom alsın? Biz ali məktəbləri qırmızı diploma bitirənlərin əziyyətinə laqeydik. Onlara mütləq hansısa üstünlük verilməlidir. Universiteti qırmızı diploma bitirənlər diplomda mürəkkəb qurumamış gedib hansısa iş yerində imtahan verir. Ona görə təklif edirəm ki, "Təhsil haqqında" qanuna dəyişikliklərin siyahısına qırmızı diploma bitirən məzunlara üstünlük verilməsini də daxil edək".

İsmayıl Qocayev

# Millət vəkilləri Kılıçdaroğluna qarşı

## Azərbaycan Parlamentində Türkiyənin müxalifət lideri sərt tənqid olundu



### "Aramıza heç bir yad, əcnəbi kökənli ünsürlər girə bilməzlər"

**Milli Məclisin dünənki plenar iclasında bir neçə deputat Türkiyədə 14 mayda keçiriləcək seçki öncəsi müxalifətin prezidentliyə namizədlərinin Azərbaycan əleyhinə səsləndirdikləri ittihamları sərt tənqid ediblər.**

*Millət vəkili Elnur Allahverdiyev deyib ki, Türkiyə və Azərbaycan strateji tərəfdaş, qardaş, bir millət iki dövlətlərdir. Lakin deputat təəssüflə qeyd edib ki, bu səmimi münasibətləri öz məqsədləri, hazırda isə seçki hədəfləri üçün yanlış istifadə etməyə çalışan qüvvələr də var:* "Bu günlərdə Türkiyədə müxalifətin namizədi bəyan edib ki, Azərbaycanda Türkiyədən gələn yük maşınlarından yüksək rüsum alınır, eyni zamanda bu rüsum digər heç bir dövlətin maşınlarından tələb olunmur. Təbii ki, bu, yanlış fikirdir və müxalifətin lideri məsələ barəsində yetərincə məlumatlı deyil. Ən azı ona görə ki, müvafiq rüsumlar ya əsas etibarilə ləğv olunub, ya da azaldılıb. Yəni bu sahədə Azərbaycan hökuməti ciddi liberallaşma tədbirləri həyata keçirib. Azərbaycanın postsovet məkanının dövlətləri ilə hələ ötən əsrin 90-cı illərindən hökumətlərarası sazişləri mövcuddur. Məhz buna görə onların avtomobillərindən tutulan rüsumlar fərqli idi. Ancaq yenə də qeyd etməliyəm ki, bu rüsumların çoxu artıq ləğv edilib və bu barədə ictimaiyyətin yanvarın sonlarından məlumatı var".

*Parlament üzvü Türkiyədə prezidentliyə namizəd olan Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlunun "Yeni İpək yolu" layihəsini də tənqid edib. Deputat bildirib ki, müxalifət liderinin təqdim etdiyi "layihə" türk dünyasının birliyinə xidmət etmir:* "Müxalifət liderinin daha öncə təklif etdiyi İpək Yolu layihəsi türk dövlətlərinin necə birləşdirə bilər ki, bu layihədə Azərbaycan və Qazaxıstan kənarda qalırlar? Yolun əsas hissəsi düşmənimiz Ermənistana açıq-aşkar kömək edən İran ərazisindən keçir. Qardaş ölkədə təqribən 180-200 min yük avtomobili sürücüsü var. Güman ki, müxalifətin liderinin bu bəyanatı onların səslərinə hesablanıb. Ancaq məlumat yanlış olmaqla bərabər, təəssüf ki, həm də bir kinayə, sarkazmla müşayiət olunur ki, bu da bizim ortaq keçmişimizə, bu günümüzə və sabahımıza yaraşmır".

E.Allahverdiyev deyib ki, bizim Çanaqqala savaşımız olub, Vətən müharibəmiz olub, bizim Şuşa bəyannaməmiz var: "Aramıza heç bir yad, əcnəbi kökənli ünsürlər girə bilməzlər. Odur ki, xalqlarımız və ölkələrimiz arasındakı münasibətləri xarakterizə edən "Bir millət, iki dövlət" deyimini sarkazm mövzusu etmək Türkiyə kimi şanlı tarixi olan dövlətin prezidentliyinə iddia edən siyasətçiyə yaraşmır. Ümid edək ki, müxalifət lideri komandasının ona verdiyi bu informasiyanın səhv olduğunu tezliklə biləcək və fikirlərinə lazımi dəyişikliklər edəcək".

**Millət vəkili Qüdrət Həsənquliyev də deyib ki, əfsuslar olsun ki, qardaş ölkədə müxalifət funksiyasını yerinə yetirən bəzi partiyalar bu və ya digər formada Ermənistanı, Fransanı dəstəkləmiş olurlar:** "Deputat həmkarım Elnur Allahverdiyevin çıxışını tam dəstəkləyirəm və Azərbaycana münasibətdə Türkiyədə səsləndirilən fikirlərdən dərin təəssüf hissi keçirirəm. Cənab Ərdoğanla İlham Əliyev Türkiyə-Azərbaycan münasibətlərini o səviyyəyə qaldırıb ki, orada hansısa hakimiyyət dəyişikliyi də bu münasibətlərə ciddi ziyan vura bilməz. Belə bir cəhd etmək istəyən şəxslər isə Türkiyə xalqı əfv etməz".

**Deputat Fəzail Ağamalı da Türkiyənin ana müxalifət partiyasının liderinin Azərbaycandan yan keçən layihənin anonsunu verməsinə sərt reaksiya verib:** "Özünü Türkiyənin baş müxalifəti adlandıran şəxsin sərsəm mövqeyi ortadadır. Biz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan qarşısında xidmətlərini heç vaxt unudan deyilik. Ümid edirəm ki, müdrik türk xalqı, Türkiyədə yaşayan bütün xalqlar Türkiyənin, türk dövlətlərinin daha da möhkəmlənməsi üçün mövqelərini ifadə edəcəklər". Çıxışının sonunda F.Ağamalı 14 mayda Türkiyə xalqının indiki prezidentə yenidən etimad göstərəcəyinə inandığını vurğulayıb: "İnanıram ki, mayın 14-də türk xalqı Rəcəb Tayyib Ərdoğana səs verəcək və bu, türk dünyasının daha da möhkəmlənməsinə növbəti töhfə olacaq".

*Qeyd edək ki, CHP sədri Kamal Kılıçdaroğlu seçkiöncəsi "böyük layihə" adı altında videomüraciət yayıb. Sözügedən videoda Kılıçdaroğlunun prezident seçiləcəyi təqdirdə canlandıracağını vəd etdiyi "Yeni İpək yolu" haqqında xəritə əks olunub. Prezidentliyə namizədin təqdim etdiyi xəritə birmənalı qarşılanmayıb. Belə ki, Kılıçdaroğlunun vəd etdiyi "Yeni İpək yolu" layihəsinin Azərbaycandan keçməməsi həm Türkiyədə, həm də Azərbaycanda etiraz doğurub.*

**İsmayıl Qocayev**

# "Siyasi lider öz milləti ilə ünsiyyətdə olmalıdır"

## Elçin Şıxlı ölkə başçısının Şuşaya tez-tez səfərini yüksək qiymətləndirir



**"Şuşada möhkəmlənmək və Şuşanı dünya ictimaiyyətinin diqqət mərkəzində saxlamaq birbaşa Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının əsasını qoymaq üçündür".**

**Bunu "Şərq"ə açıqlamasında "Ayna-Zerkalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı ölkə başçısının Şuşaya tez-tez səfəri və oradan xalqla təmasa keçməsindən danışarkən deyib.**

Baş yazar bildirib ki, Şuşanın adının beynəlxalq aləmdə tez-tez hallanması çox önəmlidir: "Reklamda 25-ci kadr var. Orada əsasən imic reklamı gedir. Yəni insanların təhtəlşüuruna 25 kadr işlənilir. Çünki 25-ci kadr görünmür və birbaşa şüura təsir göstərir. Bax, cənab prezident həmin effektdən istifadə edir. Bu mənada Şuşa deyiləndə onun Azərbaycan torpağı olduğu hamı tərəfindən qəbul edilmiş olur".

Cənab Prezident İlham Əliyevin xalqla təmaslarını dəyərləndirən baş yazar əlavə edib ki, siyasi lider öz milləti ilə ünsiyyətdə olmalıdır: "İstənilən sanballı rəhbər özünün xalqla təmasda olduğunu göstərir".

*Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Şuşa şəhərindən müraciət edib.*

**Müraciətdə deyilir:**

- Əziz bacılar və qardaşlar.

Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bildiyiniz kimi, 2023-cü il mənim Sərəncamımla "Heydər Əliyev İli" elan olub. İlin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm xarici ölkələrdə bir çox tədbirlər keçirilib və keçiriləcəkdir. Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır.

Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişdilər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılıb və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atdı.

**Nihat Müzəffər**

# Sığınacağın fəaliyyəti çox yaxşıdır

## Razi Nurullayev ancaq təriflədi

**Dünən Milli Məclisdə "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı" müzakirəyə çıxarılıb. Məlumatı İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov təqdim edib. Müzakirələrdən sonra "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı" qəbul edilib.**



**Millət vəkili Razi Nurullayev insan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məruzəsini müsbət qiymətləndirib və bu sahədə aparılan işi nəinki regionumuzda, həm də dünyada ən öncül təcrübə və fəaliyyətlərdən biri hesab edib:** "Yeri gəlmişkən, idarənin nəzdində olan sığınacağın da fəaliyyəti çox yaxşıdır. Parlamentin İnsan hüquqları komitəsinin üzvləri kimi bu sığınacaqda olduq. Orada qurbanlar üçün yaradılan şəraitdən çox razı qaldıq".

Deputat əlavə edib ki, bəzən kənardan görüb qiymətləndirmək olmur, amma öz gözlərin ilə görəndən sonra fikirlər tam dəyişir: "Bizim də fikirlərimiz müsbətə doğru elə dəyişdi ki, xeyli maraqlı zarafatlar da etdik, ora sanatoriya kimi getmək də olar. Gördüklərimdən təsirlənib söz də vermişdim ki, tribunadan xoş sözlər deyəcəyəm və deyirəm də. Bu həm də digər qurumlar üçün bir məlumatdır. Gördüyünüz işlərlə, fəaliyyətinizlə deputatları tanış edin ki, onlar da bəzən bilməyərəkdən haqsızlığa yol verməsinlər. Ümumiyyətlə, Daxili İşlər Nazirliyinin fəaliyyətini qiymətləndirirəm. Ölkəmizdə stabilliyin, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində onların rolu danılmaz və əvəzsizdir. Həm də qeyd etmək istəyirəm ki, Daxili İşlər Nazirliyi ilə Parlament arasında çox sıx və faydalı iş birliyi var. Bu da sevindiricidir, çünki qarşılıqlı iş birliyi əsasında bir çox məsələləri anında və konkret epizodlar üzrə həll etmək olur".

**İsmayıl**



# Türkiyə nikbindir

## Taxıl sazişinin müddəti 60 gün uzadıla bilər

**Müddəti mayın 18-də bitəcək taxıl sazişi daha 60 gün uzadıla bilər. Müvafiq qərarı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səsləndirəcəyi gözlənilir.**

TASS informasiya agentliyi bu barədə danışıqlar prosesi ilə tanış olan mənbəyə istinadla məlumat yayıb.

"Taxıl sazişi 60 gün uzadıla bilər. Rusiya ola bilsin ki, buna sonuncu dəfə razılıq verir. Müqavilənin uzadılmasını ənənəvi olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı (Vladimir Putin - red.) ilə telefon danışığından sonra səsləndirəcəyi gözlənilir", - deyə mənbə bildirib. Onun sözlərinə görə, taxıl sazişinin fəaliyyət müddətinin uzadılması bu gün-sabah elan oluna bilər.

Xatırladaq ki, taxıl sazişi 2022-ci il iyulun 22-də İstanbulda bağlanıb. O vaxt BMT, Rusiya, Türkiyə və Ukraynanın iştirakı ilə iki sənəd imzalanıb. Onlardan biri Ukrayna taxılının ixracı üçün dəhlizin yaradılması, digəri Rusiya ərzaq və gübrəsinin ixracı barədə idi. O vaxtdan bəri Moskva dəfələrlə bildirir ki, müqavilənin Rusiya hissəsi işləmir.

Bu arada Türkiyənin müdafiə naziri Hulusi Akar Rusiya, Türkiyə, Ukrayna və BMT nümayəndələrinin iştirakı ilə mayın 10-11-də İstanbulda keçirilən danışıqların nəticələrini şərh edərkən tərəflərin taxıl sazişini uzatmaq istiqamətində irəlilədiyini deyib.

"İlk nəticələr İstanbuldakı görüşün müsbət olduğunu göstərir. Proses taxıl müqaviləsinin uzadılması istiqamətində gedir", - deyə Hulusi Akar jurnalistlərə bildirib.

# Proses ləngisə də, yekun sülhə imza atılacaq

## Toğrul İsmayıl: "Çünki vaxtı çox uzatmaq Ermənistana sərf etmir və uzandıqca onlar daha çox zərər görürlər"





xezer xeber

**Xəbər verdiyimiz kimi, 10 may axşam və 11 may səhər saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri təxribatlara əl atıb. Belə ki, Azərbaycan Ordusunun bölmələri müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutulub. Artışma nəticəsində bir hərbi qulluqçumuz şəhid olub, digəri yaralanıb.**

*Təxribatın yekun sülhə necə təsir edəcəyini "Şərq"ə dəyərləndirən türkiyəli politoloq, Ankara Universitetinin professoru Toğrul İsmayıl qeyd edib ki, bu cür təxribatların olma ehtimalı hər zaman var:* "Çünki bölgədə maraqlı olan dövlətlər, təşəbbüsü əldən vermək istəmir. Ümumiyyətlə, ABŞ-də baş tutan təmaslardan sonra yekun sülhə bağlı ümid doğmuşdu. Bu isə Rusiya tərəfini narahat edirdi. Ona görə də Ermənistanın fonunda tərəflər arasındakı belə toqquşmalar gözləniləndir".

*Analitik əlavə edib ki, belə təxribatların ümumi sülh gedişatına təsir göstərəcəyini düşünmür:* "Çünki bu gün Nikol Paşinyanın öz mövqeyi və onunla razılaşmayan revanşistlər var. Yəni erməni Baş nazir ölkəyə tamamilə nəzarət edə bilmir və Ermənistanda xaos hökm sürür. Ümumiyyətlə, düşünürəm ki, proses ləngisə də, yekun sülhə imza atılacaq. Çünki prosesləri çox uzatmaq Ermənistana sərf etmir və uzandıqca onlar daha çox zərər görürlər. Həmçinin qalıcı sülhün əldə edilməsinə ilk növbədə Rusiya maraqlı olmalıdır. Amma görürük ki, Kreml daxilindəki bəzi güclər bunda maraqlı deyil. Ümumiyyətlə, hadisələr Qərb və Rusiyanın rəqabəti fonunda baş verir. Çünki Ermənistan bu mübarizə üçün ən uyğun ölkədir".

**Nihat Müzəffər**

# Salyanda 20 məktəbdə direktor yoxdur

## Deputat təmsil etdiyi rayonun təhsil problemlərini qabartdı

**"Azərbaycanda fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin təxminən altıda birində direktor yoxdur. Misal olaraq, təmsil etdiyim Salyan rayonunda 20 məktəbdə direktor yoxdur".**




*Bunu deputat Fəzail Ağamalı Parlamentin mayın 12-də keçirilən plenar iclasında çıxışı zamanı deyib. Onun sözlərinə görə, "Təhsil haqqında" və "Elm haqqında" qanunlara ciddi dəyişikliklərin edilməsinə ehtiyac var:* "Çünki bu sahədə bir sıra boşluqlar var və mövcud problemlər aradan qaldırılmalıdır". F.Ağamalı bildirib ki, Salyanda 5 rayonu özündə birləşdirən Regional Təhsil İdarəsinin rəhbəri təhsillə əlaqəli si və anlayışı olmayan, əvvəllər iqtisadi sahədə çalışan insandır: "Bu cür hallar çoxdur. Bu kimi problemlərin aradan qaldırılması üçün qanunvericilik bazasında daha optimal yollar tapmalıyıq. Digər tərəfdən, bu gün repetitorlar bizə ciddi problemlər yaradır. Bu məsələnin müzakirəsinin qanunvericilikdə əks olunmasına ehtiyac var".

**Parlament üzvü vurğulayıb ki, bu gün məktəbi bitirən təxminən 100 mindən çox məzunun yarısı təhsildən kənarda qalır:** "Ona görə də texniki peşə məktəblərinə həmin məzunların cəlbi mütləqdir. Eyni zamanda peşə məktəblərinin maddi-texniki bazasının gücləndirilməsinə ehtiyac var. Hörmətli sədr, sizdən xahiş edirəm ki, heç olmasa, Parlamentin payız sessiyası müddətində təhsillə bağlı geniş xarakter daşıyan dinləmələr keçirilsin".

**İsmayıl**



# Plan alınmadı

## Kılıçdaroğlu Rusiya amilini ortaya atmaqla Qərbdən daha güclü dəstək almağa çalışır

**Türkiyədə prezidentliyə namizəd, Cümhuriyyət Xalq Partiyasının sədri Kamal Kılıçdaroğlu "Tvitter" hesabında Rusiyaya qarşı ittihamlar səsləndirib. Kılıçdaroğlu siyasətçilərlə bağlı yayılan və montaj olunduğu bildirilən videoların arxasında Rusiyanın olduğunu açıqlayıb.**

Hətta qeyd edib ki, əgər Rusiya 15 maydan sonra Türkiyə ilə dostluq etmək istəyirsə, əlini türkün dövlətindən çəkməlidir. Kılıçdaroğlunun bu açıqlaması mətbuatda və sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub.

Türkiyədə bəzi ekspertlər iddia edirlər ki, Kılıçdaroğlu prezident seçilərsə, Türkiyənin Rusiya ilə münasibətləri pisləşə bilər. Bu isə Türkiyə iqtisadiyyatına mənfi təsir edə bilər. Xatırladaq ki, daha öncə Kılıçdaroğlu prezident seçiləcəyi təqdirdə Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalara qoşulacağını bildirmişdi. Rəsmi Moskva Kılıçdaroğlunun Rusiya ilə bağlı ittihamlarını rədd edib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib ki, Moskva Ankara ilə münasibətləri yüksək qiymətləndirir. Çünki Türkiyə çox məsuliyyətli, suveren və düşünülmüş mövqe tutur: "Biz Türkiyə ilə ikitərəfli münasibətlərimizi çox yüksək qiymətləndiririk. Çünki Türkiyə Respublikası indiyədək üzləşdiyimiz bir sıra regional və dünya problemləri ilə bağlı çox məsuliyyətli suveren və yaxşı düşünülmüş mövqe tutub. Bu mövqe bizim üçün çox cəlbedicidir. Ancaq dəfələrlə demişik və israr edirik ki, xarici dövlətlərin daxili işlərinə və seçki proseslərinə qarışmırıq. Rəsmən bəyan edirik ki, hər hansı müdaxilədən söhbət gedə bilməz və əgər kimsə cənab Kılıçdaroğluna belə bir məlumat veribsə, deməli, yalançıdır".

**Siyasi şərhçi Aqşin Kərimov bildirib ki, cox adam elə düşünür ki, Kamal Kılıçdaroğlu hakimiyyətə gəlsə, Türkiyə-Rusiya münasibətləri qırılma nöqtəsinə qədər gərginləşəcək. Analitikin sözlərinə görə, bu, yanlış düşüncədir:** "Türkiyə bu regionda Rusiya ilə əməkdaşlıqdan qaçmağı məqbul hesab etmir. İki ölkəni birləşdirən müştərək maraqlar var. Hər iki dövlət öz siyasətlərini tarixi təcrübələrdən dərs çıxararaq formalaşdırıb və irəliyə aparıb. Bu öz yerində. Kılıçdaroğlunun Məhərrəm İncənin prezidentliyə namizədlikdən geri çəkilməsindən sonra Rusiyanı ittiham etməsi isə məntiqi fikir doğurur. Əgər Kılıçdaroğlunun dediyi kimi, şantaj videolarının arxasında Rusiya dayanırsa, o zaman diqqət AKP-yə yönəlir. AKP iqtidarının Rusiya ilə əlaqələrdə yüksəksəviyyəli əməkdaşlığa üstünlük verməsi Moskvanın gözündə Ankaranın çəkisini qaldırır. Əgər Kılıçdaroğlu düz danışırsa, onda İnceyə qarşı kampaniyanın təlimatçısının kim olduğu görünür. Buradan məntiqi bir sonluq çıxır. İncənin geri çəkilməsi Rəcəb Tayyib Ərdoğanın seçki mənafeyinə uyğundur. Əgər Kılıçdaroğlu düz danışmırsa, o zaman Rusiya amilini ortaya atmaqla CHP-nin tələ qurmaqdakı əməlini ört-basdır etməyə və Qərbdən daha güclü dəstək almağa çalışır. Rusiya amilini kənara qoyaq. Bəs İncənin geri çəkilməsi əsas rəqiblərdən kimin xeyrinə yarayır? Hesab edirəm ki, Ərdoğan bir qədər yumşaq və soyuqqanlı tövr sərgilədi. Məncə, İncənin geri çəkilməsi Ərdoğanın seçki texnologiyasına xidmət edən komponent idi".

> "Məhərrəm İncənin geri çəkilməsi Ərdoğanın seçki texnologiyasına xidmət edən komponent idi"

**İsmayıl**

# Onlara da möhlət...

## Millət vəkilləri ədalətsizliyin aradan qaldırılmasını istəyir



Kollec tələbələrinə də hərbi xidmətdən möhlət hüququ verilməsi təklif olunur

**Milli Məclisdə kollec tələbələrinə əsgərlikdən möhlət hüququnun verilməsi təklif olunub. Bu təkliflə Parlamentin dünən keçirilən iclasında deputat Naqif Həmzəyev çıxış edib: "Hazırda Azərbaycanda universitet tələbələrinə əsgərlikdən möhlət hüququ tanınır. Amma kollec tələbələrinə möhlət verilmir. Təklif edirəm ki, bu şans kollec tələbələrinə də tanınsın. Bu məsələyə ən azı növbəti illərdə baxaq".**

Qeyd edək ki, Azərbaycanda kolleclərə qəbul olunan oğlanlara hərbi xidmətdən möhlət hüququnun verilməsi planlaşdırılır. Elm və Təhsil Nazirliyi bu məqsədlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, eləcə də digər aidiyyəti qurumlara müraciət ünvanlayıb. Elm və təhsil nazirinin müavini İdris İsayev bu yaxınlarda mətbuata açıqlamasında deyib ki, söhbət təm möhlət hüququnun verilməsindən gedir: "Bildiyiniz kimi, təhsil proqramını bitirməmiş tələbələri müddətli həqiqi hərbi xidmətə çağırırlar. Təklifimiz odur ki, onlar proqramı bitirdikdən sonra hərbi xidmətə getsinlər. Lakin təklifimizi nə dərəcədə dəyərləndirəcəklərini deyə bilmərəm".

Təhsil eksperti Kamran Əsədov hesab edir ki, orta ixtisas təhsil müəssisələrində təhsil alan oğlanlara hərbi xidmətə görə möhlət verilməsi təklifi doğru deyil. Onun sözlərinə görə, tələbənin təhsil müddəti üçün möhlət hüququnun verilməsinin təxirə salınması məsələsi yalnız on birinci sinifdən sonra kollecə daxil olan gənc sonuncu kursda yetkinlik yaşına (on səkkiz yaşına) çatdıqda müsbət həll edilə bilər: "Təcrübədə yuxarıda göstərilən qayda tətbiq edilmir, çünki ümumi orta təhsil haqqında sənədin alındığı günə qədər gənc on səkkiz yaşına çatmış olur. Beləliklə, müddəti üç ildən çox olan kollecdə təhsil müddəti nəzərə alınmaqla, vətəndaş iyirmi yaşında orta ixtisas təhsili haqqında diplom alır".

**Millət vəkili Razi Nurullayev isə kolleclərə qəbul olunan tələbələrə hərbi xidmətdən möhlət hüququnun verilməsini müsbət hal hesab edir. Deputatın sözlərinə görə, tələbənin təhsilini yarımçıq qoyub hərbi xidmətə yollanması onu təhsildən bir qədər soyudur:** "Xidmətdən il yarım sonra geri qayıdıb yenidən təhsilini davam etdirən tələbədə adaptasiya zamanı müəyyən problemlər yaranır. Üstəlik, bizdə ali məktəb tələbələrinə möhlət hüququ verilir. Əgər ali məktəblərdə möhlət verilirsə, orta ixtisas məktəblərində möhlət niyə verilmir? Burda da ədalətsizlik var. Ona görə də orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələrə hərbi xidmətdən möhlət hüququnun verilməsi həm dediyimiz ədalətsizliyi aradan qaldırar, həm də həmin tələbələrin təhsilinə müsbət təsir edər".

*Qeyd edək ki, məsələ Elm və Təhsil Nazirliyinin də gündəmindədir. Nazir müavini İdris İsayev bir neçə gün öncə mətbuata açıqlamasında bildirib ki, orta ixtisas təhsili müəssisələrində oxuyan tələbələrə hərbi xidmətdən möhlət hüququnun verilməsi ilə bağlı təkliflərimizi həm Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, həm də digər aidiyyəti qurumlara göndərmişik: "Burada təm möhlət hüququnun verilməsindən söhbət getmir. Bildiyiniz kimi, təhsil proqramını bitirməmiş tələbələri müddətli həqiqi hərbi xidmətə çağırırlar. Təklifimiz odur ki, onlar proqramı bitirdikdən sonra hərbi xidmətə getsinlər".*

**Şəymən Bayramova**

# Düşmən bizi yenə müharibəyə sürükləyir

## Toqquşmaların böyükmiqyaslı hərbi əməliyyatlara çevrilməsi Ermənistan tərəfinə sərf edir

**Mayın 10-da Ermənistanın sərhəddə törətdiyi təxribat nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbçisi Orxan Novruzəlizadə Ağstafada dəfn olunub. Şəhid anadan olduğu Vurğun qəsəbəsində, qəsəbə qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimdə şəhidin yaxınları, hərbçilər, rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri iştirak edib.**

Qeyd edək ki, Orxan Novruzəlizadə 1998-ci il təvəllüdlü Ağstafa rayonunun Vurğun qəsəbəsində anadan olub. İki ilə yaxın Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edib.

Şəhid Orxan Novruzəlizadənin atası Elxan Novruzəlizadənin sözlərinə görə, oğlu dünən evə gəlməli imiş: "2 qız, 2 oğul idilər. Orxan ən balacaları idi. Ən çox istədiyim o idi... Bu gün evə gələcəyini demişdi". E.Novruzəlizadənin sözlərinə görə, həyat yoldaşı da bir müddət əvvəl vəfat edib, heç ili də çıxmayıb.

Təxribat nəticəsində başından ağır güllə yarası alan müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Müslüm Mahmudlu isə hazırda Respublika Neyrocərrahiyyə Xəstəxanasında müalicə olunur. Dünən əməliyyat olunan hərbçimizin vəziyyəti hələ də ağırdır. Hazırda o, reanimasiya şöbəsindədir.

*Qeyd edək ki, mayın 10-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədiblər.*



**Erməni təxribatını şərh edən hərbi ekspert Elxan Şıxəliyev deyib ki, düşmən ordusu tarix boyu bu cür oyunlarla problemi daha da ağırlaşdırmağa, sülh prosesini pozmağa çalışır:** "Ermənistanın bu addımları adət halını alıb. Ermənistan mütəmadi olaraq atəşkəsi pozmaqla toqquşmanın miqyasını böyütmək istəyir: "Bilirsiniz ki, toqquşmaların olduğu həmin ərazilərdə Avropa İttifaqının müşahidəçiləri də var. Ermənistan nə qədər təxribatları törədən tərəf olsa da, həmin müşahidəçilər bütün bunları Azərbaycanın əleyhinə qeydə alırlar. Yeni göstərmək istəyirlər ki, guya, vəziyyəti gərginləşdirən Azərbaycandır. Ermənistan bu cür addım atmaqla siyasi danışıqların pozulması üçün bir vəziyyət yaranmasını istəyir. Lokal konfliktin yaranması taktiki bir vəziyyətdir. Belə olduğu halda da Azərbaycan Silahlı Qüvvələrinin birinci eşalonunun taborları düşmənə misli ilə cavab verir. Hazırkı toqquşmaların böyükmiqyaslı hərbi əməliyyatlara çevrilməsi isə yalnız Ermənistan tərəfinə sərf edir. Qarşı tərəf elə bizi məhz buna sürükləmək istəyir. Sərhədlərin demarkasiya və delimitasiyası üzrə iş getdiyi və sülh sazişi ilə bağlı müəyyən addımların atıldığı bir müddətdə Ermənistan Avropa institutlarında belə toqquşmaları bizə qarşı istifadə edir. Yeni böyük hərbi əməliyyatların keçirilməsi bizim cəmiyyətdə nə qədər məqbul sayılsa da, siyasi olaraq qəbul edilmir. Ona görə də bölmələrimizin ermənilərin təxribatına yalnız taktiki cavab verməsi ən doğru olandır".

**Şəymən**

# "Nərdivançı" şagirdlərə yol hərəkəti qaydaları öyrədəcəksə, lap yaxşı

## Ancaq məktəblərin yerləşdiyi ərazilərdə yol nişanları və xəbərdarlıq nişanlarının olması mütləqdir

**"Nərdivançı" sosial müəllim layihəsi Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin dəstəyi ilə "Yol hərəkəti qaydalarını bilirəm!" adlı maarifləndirici videoçarx müsabiqəsi elan edib.**



Bu barədə "Nərdivançı" layihəsinin feysbuk səhifəsində məlumat verilir. Qeyd olunur ki, müsabiqənin məqsədi şagirdlərin yol hərəkəti qaydaları haqqında maarifləndirilməsi və müəllimlərin dərslərində layihə çərçivəsində ərsəyə gələcək videoçarxlardan dərs vəsaiti kimi istifadə etməsi məqsədi daşıyır: "Hazırda ölkəmizdə həyata keçirilən müvafiq Dövlət Proqramının məqsədlərinə uyğun olaraq, yol hərəkəti təhlükəsizliyinin təbliğində vətəndaş cəmiyyəti institutlarına dəstək göstərilməsini fəaliyyətinin prioritet istiqaməti olduğunu qeyd edən Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi təhsil ictimaiyyətini müsabiqədə fəal iştirak etməyə çağırır". Müsabiqəyə ölkədə fəaliyyət göstərən dövlət və özəl orta təhsil müəssisələrində çalışan müəllimlər öz şagird komandası ilə qoşula bilər. Müsabiqəyə təqdim olunan işlərin qəbulu 5 may 2023-cü il tarixindən 5 iyun 2023-cü il tarixinə kimi davam edəcək. Qeyd olunan şərtləri ödəyən videoçarxlar "Nərdivançı" layihəsinin feysbuk səhifəsində paylaşılacaq. Paylaşılan videoçarxlar içərisindən münsiflər heyəti tərəfindən ilk üç videoçarx seçilərək qalib komandalar müəyyənləşdiriləcək. O da qeyd olunur ki, müsabiqə Avtosfer.az saytının informasiya dəstəyi ilə keçirilir. Müsabiqənin şərtləri barədə də feysbuk səhifəsində ətraflı məlumat verilir.

**Müsabiqənin yol hərəkəti qaydalarının öyrənilməsində şagirdlərə kömək olacağını deyən nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, bu, çox vacib bir işdir:**

- Məktəblilərin xəsarət aldığı qəzalar baş verir, bəzən şagirdlərin yol qəzalarında həyatlarını faciəli şəkildə itirdiklərinin də, təəssüf ki, şahidi oluruq. Bir neçə gün əvvəl 334 saylı orta məktəbin yaxınlığında 7 yaşlı uşağı avtomobil vurmuşdu. Belə hadisələr olmasın, faciələr yaşanmasın, yol qəzalarında uşaqlarımız xəsarət almasın deyə, hamının, o cümlədən də uşaqların yol hərəkəti qaydalarını bilmələri vacibdir. Bu baxımdan düşünürəm ki, "Nərdivançı" layihəsi çərçivəsində şagirdlərə yol hərəkəti qaydaları öyrədiləcəksə, çox yaxşıdır, hədəfi bəlli olan müsabiqədir.

Qeyd olunur ki, müsabiqəyə yol hərəkəti qaydaları haqqında video-çarxlar təqdim olunmalıdır. Ekspert kimi tövsiyə edə bilərəm ki, video-çarxların müddəti qısa olsa yaxşıdır. Qısa izahatlar, qısa süjetlər, səhnələşdirilmiş epizodlar uşaqların diqqətini daha çox cəlb edir. Video-çarxlar məktəblilərin yol hərəkəti qaydaları haqqında maariflənmələrinə xidmət etməlidir. Qısa videolar daha çox yaddaqalan olur. Yaxşı olar ki, video-çarxların çəkilişində uşaqlar iştirak etsin. Həmyaşıdını görmək, hərəkətlərini izləmək uşaqlara müsbət təsir edir. Uşaq bu qaydaların məhz onun üçün və onun təhlükəsizliyi üçün, onu qorumaq üçün hazırlandığını bilməlidir.

İ.Hüseynli qeyd etdi ki, yol hərəkəti qaydalarını uşaqlara öyrətməklə iş bitmiş hesab edilməməlidir:

- Həm orta məktəblərin yerləşdiyi ərazilərdə, həm də məktəblərə yaxın, məktəb binasının yoluyla kəsişən istiqamətlərdə yol nişanları və xəbərdarlıq nişanlarının olması mütləqdir. Daha yaxşı olar ki, məktəb binaları yolun hərəkət hissəsindən kənarda yerləşsin. Belədə uşaqların həyatı daha az təhlükəli olacaq.

**Məlahət Rzayeva**

# Vizasız gedib 3 ay qala biləcəklər

## Azərbaycan vətəndaşları Birləşmiş Ərəb Əmirliklərinə rahat gedə biləcəklər

**Ümumvətəndaş pasportlarına malik Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri vətəndaşları hər iki ölkəyə vizasız gedib 3 ay qala biləcəklər.**



Bununla bağlı Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik və xüsusi/xidməti pasportlara malik şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunda dəyişiklik edilməsi ilə əlaqədar notalar mübadiləsinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin giriş vizasından azad edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsində əksini tapıb.

Dəyişikliyə əsasən, Memorandumda "diplomatik" sözü "ümumvətəndaş, diplomatik və xüsusi/xidməti" sözləri ilə əvəz edilir. Yeni vizasiz giriş əvvəllər yalnız diplomatik və xüsusi/xidməti pasportlara malik şəxslərə şamil edilirdisə, dəyişiklikdən sonra ümumvətəndaş pasportlarına malik şəxslərə də şamil ediləcək.

*Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq qəbul edilib.*



# Gürcüstanla quru sərhədi uzun müddət açılmayacaq

## Azərbaycan hökuməti doğru qərar verib, artıq bu məsələ geosiyasi vəziyyətdən asılıdır

**Quru sərhədlərin açılması, daha doğrusu, açılmaması məsələsi gündəmdən düşmür. Məsələ o qədər aktual şəkil alıb ki, artıq Milli Məclisin plenar iclasında da səsləndirilib. Milli Məclisin dünənki toplantısında millət vəkili Naqif Həmzəyev bildirib ki, Azərbaycanın quru sərhədlərinin açıq olmaması ilə bağlı şikayətlər var.**

"Düşünürəm ki, ən azı Gürcüstanla sərhədləri Azərbaycan vətəndaşları üçün açmaq olar", millət vəkili qeyd edib. Millət vəkili vətəndaşların yay istirahətini keçirməsi üçün bölgələrdə fəaliyyət göstərən hotellərin baha olmasından da danışıb: "Vətəndaşlara yay istirahətləri ilə bağlı SMS-lər göndərilir, bu isə insanları qıcıqlandırır. Bu SMS-lər vasitəsilə vətəndaşlara yay istirahətlərini müxtəlif hotellərdə keçirmək təklif edilir. Hər kəsin imkanı yoxdur ki, 400-500 manata hotellərdə gecələsin. Yaxşı olar ki, aidiyyəti qurumlar turizm sektorundakı qiymət məsələlərinə diqqət yetirsinlər. Bu zaman sadə vətəndaşların da istirahət etməsinə şərait yaranar".

**Milli Məclisdə qaldırılan problemlərlə bağlı "Şərq"ə danışan iqtisadçı Fuad İbrahimov səbəbləri açıqladı:**

- Quru sərhədlərin hansı səbəbdən açılmamasıyla bağlı iqtisadçı kimi araşdırma aparmışam. Və bu qənaətə gəlmişəm ki, quru sərhədlərin bağlı saxlanmasını pandemiya ilə əlaqələndirmək mümkün deyil artıq. Yəni pandemiya səbəb kimi göstərilə bilməz. Hesab edirəm ki, quru sərhədlərin açılmaması siyasi məsələdir. Nə vaxtsa bu haqda açıqlama veriləcək. Və məlum olacaq ki, quru sərhədlərin bağlı saxlanması geosiyasi vəziyyətə görədir. Vəziyyət hazırda necədir; Rusiya-Ukrayna müharibəsi davam edir, cənub qonşumuz İranla da münasibətlərimiz hazırda ziddiyyətlidir. Milli Məclisdə Gürcüstanla quru sərhədlərin açılmasının mümkünlüyü fikri səsləndirilib. Gəlin baxaq, Gürcüstanda hazırda vəziyyət necədir. Gürcüstan-Rusiya quru sərhəddi Yuxarı Lars - bu yol sovet vaxtı hərbi Gürcüstan yolu adlanırdı - gömrük qapısı tərəfdən açıqdır. Pandemiya vaxtında da bu qapı bağlanmamışdı. Rusiyanın Ukraynaya hərbi təcavüzü başlananda nə qədər insan məhz bu qapıdan Gürcüstana daxil oldu. Ruslar, gürcülər, digər millətlərin nümayəndələri. Təkcə bu gömrük postu açıq idi deyə, orda da sıxlıq yarandı, insanlar avtomobillərə, avtomobillər yük maşınlarına qarışdı. İndi də bu qapı hələ ki açıqdır və sizə deyim ki, Ermənistanın Rusiya ilə quru yolu əlaqələri bu qapı vasitəsilə həyata keçirilir. Bu sərhəd qapısı bağlansa, Ermənistan daha da zəlil duruma düşəcək. Amma Gürcüstan Prezidenti 2-3 gün əvvəl bəyanat verdi ki, Yuxarı Lars gömrük-keçid qapısında məhdudiyyətlər tətbiq edəcəklər, buna məcburdular. Çünki ölkəyə axın çoxalır, nəzarət imkanları azalır. İndi təsəvvür edin ki, əgər Azərbaycan tərəfi Gürcüstanla quru sərhədləri açmış olsaydı, vəziyyət necə mürəkkəb ola bilərdi. Məcburi köçkünlər, qaçqınlar ordusu ölkəyə axışacaqdı. Bir var, dövlət öz vətəndaşlarını, soydaşlarımızı münaqişə bölgəsindən qayda-qanunla təxliyə edir, bir də var, münaqişə və müharibə zonasından insanlar hansısa ölkəyə kütləvi axın edir. Bu yöndən baxanda deməli, Azərbaycan hökuməti Gürcüstanla quru sərhədləri elə əvvəldən bağlamaqla doğru qərar verib. Quru sərhədlərin nə zaman açılacağı geosiyasi vəziyyətdən asılıdır artıq. Məlumdur ki, quru sərhədlərinin bağlı qalması bölgə iqtisadiyyatına mənfi təsir edir, turizm sektoruna da həmçinin. Turistlər, digər ölkələrə səfər etmək istəyənlər yalnız inhisarçı təyyarə reyslərinin ümidinə qalıb. Əlbəttə, hər vətəndaşın buna maddi imkanı çatmır. Xarici ölkə vətəndaşları da bahalı təyyarə reyslərini deyil, daha ucuz, sərfəli quru yolla səyahət etməyi üstün tutur. Ona görə də turizm sektoru itirir. Amma yükdaşımalar davam edir, ticarət əlaqələri davam edir.

**Vətəndaşlara SMS göndərilməsi vasitəsilə hotellərə dəvətə gəlincə, F.İbrahimov bunun müasir turizmdə daha bir cəlbetmə vasitəsi olduğunu dedi:**

- Dünya virtuallaşıb, biletlər onlayn, sifarişlər onlayn, tamamilə gözləniləndir ki, vətəndaşlara SMS-lər vasitəsilə hotellər barədə məlumat verilir. Bu, birincisi, mobil operatorların günahıdır ki, onların xidmətindən istifadə edənlərin etibarından sui-istifadə edirlər. Yadınızdadır, bir müddət əvvəl vətəndaşlar şikayət edirdi ki, mobil telefonlarına cürbəcür reklamlar göndərilir. Mobil operatorlar qınanırdı. Vətəndaşlar təkid edirdi ki, onların telefonuna reklam məzmunlu məlumatlar göndərilməsin. İndi də həmin vəziyyətdir. Hotellər, mehmanxanalar, istirahət güşələri mobil operatorlarla işbirliyinə gedərək vətəndaşların şəxsi nömrələrinə, yəqin ki, vatsap üzərindən bu cür məlumatlar göndərirlər. Bu, əlbəttə ki, müştəri cəlb etmək məqsədi daşıyır. Hotel qiymətləri həqiqətən çox bahadır. Çünki hotellərin inşası baha başa gəlir, tikintiyə külli miqdarda investisiya cəlb olunur. Belə vəziyyətdə qiymətlərin ucuz olacağını gözləmək absurddur. Başqa səbəb, sağlam rəqabət mühitinin olmaması, seçim imkanlarının azlığıdır. İstirahət mərkəzləri, hotelçilik sektorunda müxtəliflik olsa, çeşid bol olsa, vətəndaş rahat seçim edə bilər, maddi durumuna uyğun hotel, istirahət guşəsi seçər. Hotel qiymətlərinin qalxmasına Rusiya-Ukrayna müharibəsi də təsir edib. Bilirsiz ki, müharibə başlananda nə qədər soydaşımız Azərbaycana qayıtdı, maddi imkanları da vardı, mənzil aldılar. Mənzil bazarında da bahalaşma baş verdi, kirayə ev bazarında da. Həmçinin bölgələrdəki hotellərdə qalmağa üstünlük verənlər də var. Bu da hotel qiymətlərinin bahalaşmasına səbəb olur. Gürcüstanla quru sərhədlər açılsa, ora axın olacaq, burda qiymətlər avtomatik düşəcək. Müştəri qazanmaq üçün məcbur olub qiymətləri endirəcəklər. Xarici ölkələrə gedənlərin sayı azdır deyə, hotel sahibləri ələ düşmüş fürsətdən bacardıqca çox yararlanmağa çalışırlar.

**Məlahət Rzayeva**

# Məhərrəm İncə "zəlzələsi" dünya mətbuatında

## Nüfuzlu mətbuat orqanlarının diqqəti Türkiyədədir




**Türkiyədə 14 mayda keçiriləcək seçki öncəsi Məmləkət Partiyasının sədri Məhərrəm İncənin namizədliyini geri çəkməsi və verdiyi açıqlamalar beynəlxalq medianın da gündəminə düşüb. Dünyanın nüfuzlu mətbuat orqanları İncənin mübarizədən geri çəkilməsinin doğura biləcəyi nəticələrdən yazıblar.**

Almaniyanın "Deutsche Welle" adlı rəsmi nəşri "Seçkilərdə namizədliyini geri götürdü" başlıqlı xəbərində "əhəmiyyətsiz" bir iddiaçı kimi təsvir etdiyi Məmləkət Partiyasının sədri Məhərrəm İncənin geri çəkilməsinin son nəticədə müxalifətin namizədi Kamal Kılıçdaroğlunun şanslarını artırdığını iddia edib.

Britaniyanın "İndependent" qəzeti "Yarışdakı namizəd istefa verərkən Ərdoğanın rəqibinə dəstək" başlığına üstünlük verib. Nəşr Məhərrəm İncənin seçkidən üç gün əvvəl gələn şok geri çəkilişinin Kılıçdaroğlu üçün xüsusi istiqamət vermədiyini qeyd edib.

Fransanın "Le Monde" qəzetində dərc olunan qalmaqallı təhlilin başlığı "Ərdoğanın Paris, Berlin və Vaşinqtonda gizli ümid edilən prezident seçkilərində məğlub olması" olub. Filipp Rikardın məqaləsində Ankarada uzun müddətdir real görünməyən hakimiyyət dəyişikliyinin geosiyasi nəticələrinin indi Qərb dövlətləri tərəfindən ciddi qəbul edildiyi irəli sürülüb.

Amerikanın "Politico" jurnalı Ankarada baş verənləri "Kaset qalmaqalından sonra rəqibin vurulması, Ərdoğana daha bir zərbə" kimi qalmaqallı başlıq ilə oxucularına çatdırıb. Jurnalın yazdığına görə, Məhərrəm İncənin yarışdan getməsinin bazar günü keçirilməsi gözlənilən seçkilərdə əsas müxalifət namizədi Kamal Kılıçdaroğluna xeyir verəcəyi gözlənilir. Qeyd olunub ki, çərşənbə günü İncə barəsində yayılan görüntülərin həqiqiliyini inkar edərək, videonun "saxta" olduğunu və "sui-qəsdin" bir hissəsi olduğunu söyləyib.

İngiltərənin "The Guardian" qəzeti "Kaset iddiasından sonra Türkiyə prezidentliyinə namizəd yarışdan geri çəkildi" başlığını seçib. Xəbərə görə, Məhərrəm İncə baş-başa seçkiyə bir neçə gün qalmış "dəsmal atıb" və videogörüntülərin "fake" olduğunu deyib. Keçmiş müəllim və uzun müddət Cümhuriyyət Xalq Partiyasının (CHP) üzvü olan İncə, internetdə yayılan görüntülərin uydurma olduğunu bildirib.

Amerikanın "NBC News" telekanalı "Ərdoğanın rəqibi, prezident seçkiləri öncəsi geri çəkildi və təzə qan verdi" süjetini yayımlayıb. Bildirib ki, Məhərrəm İncə yarışı tərk etməklə seçki kampaniyasının son günlərini yenidən formalaşdıra bilər.

"American Foreign Policy" jurnalı "Xaricdəki türk seçicilər çox önəmlidir" başlıqlı xəbərində xaricdəki qürbətçi seçiciləri diqqətlə araşdıraraq, Almaniya və digər ölkələrdə səs verənlərin əvvəlki seçkilərdə böyük əksəriyyətinin Prezident Ərdoğana üstünlük verdiyini xatırladıb.

Rusiyanın "İzvestiya" qəzeti "Ekspert ABŞ-nin Türkiyədəki seçkilərə mümkün təsirini göstərdi" başlığı ilə oxucuların qarşısına çıxıb. Nəşr Yaxın Şərq-Qafqaz Araşdırmalar Mərkəzinin direktoru Stanislav Tarasovun fikirlərini dərc edib. Tarasov Ərdoğanın ABŞ-dən asılı olmayan siyasət yürütdüyünü qeyd edərək, Türkiyədə baş verənlərə təsir etmək üçün səssizcə yollar tapan ABŞ-nin indi baş verənlərdən açıq şəkildə kənarda olduğunu bəyan edib.

Rusiyanın digər rəsmi nəşri "Ria Novosti"də dərc olunan təhlilin başlığı "Türkiyədə seçkidə kim qalib gələcək və rəngli inqilab ehtimalı varmı?" olub. Asiya və Afrika Araşdırmaları Mərkəzindən Aleksey Obraztsov deyib ki, müxalifət Ərdoğana qarşı hay-küy salacaq, amma hökumət seçkidə qalib gələcək.

**İsmayıl**

# Paşinyanın Brüssel görüşü öncəsi qorxuları artıb

## Baş nazir yaxın vaxtlarda sülh sazişini imzalamağa cəsarət etməyəcək



"Hökumət başçısının narahatlığı xüsusilə erməni diasporunun mümkün təzyiq və təxribatları ilə bağlıdır"

**Ermənistanın Baş naziri Nikol Paşinyanın mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyevlə Belçikanın paytaxtı Brüsseldə keçirilməsi nəzərdə tutulan görüş ərəfəsində qorxuları artıb. Bu barədə Ermənistanın "İravunk" qəzeti yazıb. Nəşrin məlumatına görə, hökumət başçısının narahatlığı xüsusilə erməni diasporunun mümkün təzyiq və təxribatları ilə bağlıdır:**

"Diaspor nümayəndələri ilə son təmaslar onu göstərir ki, bundan sonra kimsə susmayacaq. Nikol Paşinyanın Brüsselə səfəri diasporun diqqətindən kənarda qalmayacaq və "sürprizlər" az olmayacaq". Qeyd edək ki, mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçiriləcək.

**Politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistanın və erməni toplumunun idarə olunmasında əsas mexanizmlər erməni kilsəsinin əlindədir. Analitikin sözlərinə görə, erməni kilsəsi Ermənistanın işğalçı xəyallarını ideologiyaya çevirmiş yönləndirici mərkəz kimi fəaliyyət göstərir:** "Son vaxtlar Paşinyan hakimiyyətinin məhz erməni kilsəsi ilə qarşıdurma vəziyyətində olması da qətiyyən təsadüfi deyil. Erməni kilsəsi erməni diasporunun idarə olunmasında və yönləndirilməsində xüsusi rol oynayır. Erməni kilsəsi bütün dünyada ermənilərin ideoloji terror mərkəzi kimi fəaliyyət göstərir. Bu terror mərkəzi hər an Baş nazir Nikol Paşinyana qarşı sui-qəsd qərarı verə bilər. Həmin sui-qəsdin isə erməni diasporunun təmsilçiləri tərəfindən icra edilə biləcəyi qətiyyən istisna deyil. Və erməni baş nazir də bu təhlükəni anlamamış deyil. Təbii ki, Baş nazir Nikol Paşinyan və onun yaxın ətrafı bütün bu səbəblərə görə erməni diasporunun ata biləcəyi addımlardan və törədə biləcəyi təxribatlardan qorxur. Əks halda, Baş nazir Nikol Paşinyan sülh sazişini bəlkə də çoxdan imzalayardı. Ancaq erməni baş nazir yalnız geopolitik hesablamalarla deyil, buna paralel olaraq, həm də öz şəxsi həyatına olan təhlükəni nəzərə alaraq, sülh prosesini mümkün qədər uzatmağa çalışır. Hazırda erməni diasporu erməni kilsəsi ilə yanaşı, Rusiya və Fransanın da sifarişlərini yerinə yetirir. Bu iki dövlət də Cənubi Qafqazda sülh prosesinin pozulmasında maraqlıdır. Və bu məsələdə erməni diasporunun təsirindən maksimum səviyyədə istifadə etməyə çalışır".

**E.Xalidbəyli vurğulayıb ki, halbuki Paşinyan hakimiyyəti də, Ermənistanın maraqlarını doğru dəyərləndirən erməni siyasi xadimlər sülh sazişinin dərhal imzalanmasının vacib olduğunu anlayırlar:** "Keçmiş prezident Levon Ter-Petrosyanın müşaviri olmuş, vaxtilə sülh danışıqlarında iştirak etmiş Jerayir Lepardiyan da Paşinyan hakimiyyətinə sülh sazişini dərhal imzalamağı məsləhət görüb. Onun fikrincə, Ermənistan üçün sonra çox gec ola bilər. Bütün bunları nəzərə aldıqda, yaxın vaxtlarda Paşinyan hakimiyyətinin sülh sazişini imzalamağa cəsarət edə biləcəyi o qədər də inandırıcı görünmür. Bu baxımdan, Brüssel görüşünün də mövcud situasiyanı dəyişə biləcəyini ehtimal etmək çətindir".

**İsmayıl Qocayev**

**"Məhərrəm İncənin namizədlikdən çəkilməsindən sonra seçki ab-havası daha da güclənib. Xüsusilə, "Millət İttifaqı" qələbəyə daha da köklənməyə başlayıb".**





# Türkiyədə seçkilər ikinci tura qalacaq

## Seçkilərin taleyini həm də ortada olan qərarsız kütlə həll edir

*Bunu "Şərq"ə açıqlamasında Azərbaycanın mühacirət tarixinin tədqiqatçısı, araşdırmaçı-jurnalist, "Çapar" jurnalının baş redaktoru Dilqəm Əhməd Türkiyədəki seçki ab-havasından danışarkən deyib.*

O bildirib ki, İstanbulda yaşadığı üçün dünəndən etibarən "Millət İttifaqı" çadırlarındakı sevinci görə bilir: "Məhərrəm İncəyə qarşı təxribatın edilməsi açıq-aşkardır. Bu təxribatın FETÖ tərəfindən edilməsi daha çox təbliğ olunur. İqtidara yaxın qəzetlər də FETÖ üzərində dayanır. Çünki FETÖ ortaq düşməndir. Amma maraqlıdır ki, Kılıçdaroğlu son tvitlərinin birində Rusiya kəşfiyyatını açıq şəkildə günahlandırdı. Rusiyanın Türkiyədəki seçkilərə müdaxilə etməsi isə gözləniləndir. Nəzərə alaq ki, Trampla bağlı da belə iddialar vardı və həqiqətə uyğun idi. Bu baxımdan həm "Cümhur", həm "Millət İttifaqı"na sərf etməyən İncənin çıxdaş ediləcəyi gözlənilən oldu. Üstəlik, İncəyə qarşı "Millət İttifaqı"nın da xeyli müddətdir "namizədlikdən çəkil" təzyiqini də unutmamalıyıq. Halbuki hər siyasətçi kimi o da haqlı və haqqı olaraq seçkiyə qatılmışdı və kimsənin ona "çəkil" deməsi doğru deyildi. Təəssüf ki, İncə getdi və ona veriləcək səslərin daha çox Sinan Oğana yönələcəyinə inanıram. Çünki İncəni FETÖ uzaqlaşdırmış olsa belə, onun getməsini Millət İttifaqı da istəyirdi. Bu baxımdan bu prosesə qəzəbli olan Məmləkət Partiyası tərəfdarları səslərini Oğana verəcəklər".

"Onların kimə səs verəcəyini isə şənbə gününün sonuna qədər baş verəcək hadisələr göstərəcək"

**D.Əhməd əlavə edib ki, Sinan Oğan bu prosesdə uduşlu namizəd oldu:** "O qalib gələ bilməsə də, verdiyi mesajlarla və xarakteri ilə Türk ictimaiyyətində özünə xeyli tərəfdar qazandı. Həmçinin Oğanın 2028-ci il seçkilərinə daha geniş şəkildə hazırlaşacağını ehtimal edirəm. Çünki onun millətçi cameədə nüfuzunun da artdığını görürük.

Seçkinin qalibinə gəldikdə isə əvvəlki seçkilərdən fərqli olaraq ilk dəfədir ki, Ərdoğanın uduzmaq variantı var. Çünki 21 illik iqtidar artıq yorğunluq içərisindədir. Yəni ölkədə iqtisadi böhran var və əhalinin maddi vəziyyəti olduqca pisdir. Üstəlik, ilk dəfə olaraq müxalifət də sistemli və güclü şəkildə prosesə qatılıb. Bu baxımdan əgər iddia olunan kimi Kılıçdaroğlunun HDP ilə anlaşmasına dair səs yazıları çıxarsa, bu, "Millət İttifaqı"nın məğlubiyyəti demək olacaq. Təbii ki, belə hallar Türkiyə seçki tarixinə qara ləkə ilə yazılar. Ümumiyyətlə, bu il təəssüf ki, Türkiyəyə yaraşmayan hadisələr oldu. Yəni Sinan Oğana, Əkrəm İmamoğluna qarşı təxribatlar oldu, İncə hər cür təzyiqə məruz qaldı və s. Kaş ki bunlar olmayaydı. Seçkinin isə ikinci tura qalacağına inanıram. Çünki anketlər də göstərir ki, hər iki ittifaqın faizi aşağı-yuxarı eynidir. Türkiyədə seçkilərin taleyini həm də ortada olan qərarsız kütlə həll edir. Onların kimə səs verəcəyi isə şənbə gününün sonuna qədər baş verəcək hadisələr göstərəcək".

*Qeyd edək ki, iki gün sonra 14 mayda Türkiyədə prezident və parlament seçkiləri keçiriləcək.*

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”**



# Şərqi Zəngəzurda həyat canlanır

## Azərbaycan mərhələli şəkildə bütün məqsədlərinə ən qısa zamanda nail olacaq

**Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına etdiyi hər səfər işğaldan azad olunmuş bölgələrin bərpasını sürətləndirir. Dövlət başçısının səfərləri fonunda bölgədə iqtisadi inkişafın təməlini təşkil edən yol-nəqliyyat infrastrukturu, energetika sistemi yaradılır, eyni zamanda sosial obyektlər, aqroparklar istifadəyə verilir.**

Ekoloji proqramlar həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında altı istiqamət üzrə prioritetlər müəyyənləşdirilib. Kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, ”yaşıl enerji”, nəqliyyat-logistika və turizm. Sözügedən ərazilərin coğrafiyası, təbii iqlimi, tarixi-mədəni əhəmiyyəti və nəqliyyat potensialı nəzərə alınaraq regionlar üzrə inkişaf konsepsiyası hazırlanıb. Şuşa şəhəri mədəniyyət paytaxtımız rolunda çıxış edir. Ağdam şəhəri yüngül sənaye və xidmət, Zəngilan, Cəbrayıl və Füzuli rayonları nəqliyyat-logistika qovşağı olmaqla yanaşı, eyni zamanda əkinçilik və ”yaşıl enerji”, Laçın və Kəlbəcər rayonları dağ-mədən sənayesi, turizm, ”yaşıl enerji” və heyvandarlıq mərkəzlərinə çevrilir. Yaradılacaq bu mərkəzlər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun payını ciddi şəkildə yüksəldəcək. Qarabağda və Şərqi Zəngəzurda başlayan genişmiqyaslı tikinti-bərpa, quruculuq işləri ümumilikdə bütün ölkə iqtisadiyyatının inkişafına zəmin yaradacaq. Bu ərazilərdə su, günəş, külək enerjisindən istifadə edilməsi üçün lazımi şərait olduğundan alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə xüsusi önəm verilir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə region üçün çox böyük strateji əhəmiyyətə malik olacaq Zəngəzur dəhlizinin gerçəkləşdirilməsini şərtləndirir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir neçə gün öncə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunlarına səfər ediblər. Prezident və birinci xanım Xocavənd rayonuna səfəri zamanı Tuğ kəndinin, ilk yaşayış məhəlləsinin təməlini qoydular. Həmçinin Hadrut qəsəbə tam orta məktəbin bərpa layihəsi ilə tanış oldular. Cəbrayıl rayonunda orta məktəbin tikintisi ilə tanış olublar. Xudafərin qəsəbəsinin və Cahangirbəyli kəndinin, Zəngilan rayon mərkəzi xəstəxanasının təməli qoyuldu. Bununla yanaşı, Qubadlı rayonu Mərkəzi Xəstəxanasının və rayonun bir neçə kəndinin təməl qoyulma mərasimi də reallaşdı. Tikinti işləri ilə bağlı Cənab Prezidentə ətraflı məlumat verildi. Cənab Prezident Laçında da oldu. Güləbird kəndinin təməlini qoydu. Bir sözlə, Prezident İlham Əliyev 3 ilə yaxın Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi üçün təxirəsalınmaz işlər həyata keçirir. Bu ərazilərdə həyat canlanır, bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Təbii ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qarabağ və Şərqi Zəngəzura səfəri ”Böyük Qayıdış” prosesini daha sürətli həyata keçirmək üçündür. Ən qısa zamanda soydaşlarımız öz torpaqlarına əbədi qayıdacaqlar. Qayıdan insanların ləyaqətli həyat şəraitinin təmini, ”Böyük Qayıdış”ın ”universallıq”, ”inteqrasiyalı yanaşma” və ”heç kimin geridə qalmaması” kimi prinsiplərə əsaslanması vacib şərtdir. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzura budəfəki səfəri zamanı müasir dövrdə insan rifahının ən vacib elementlərinin ehtiva olunduğu, dayanıqlı və ləyaqətli qayıdış istiqamətində bütün nüansların nəzərə alındığını bir daha göstərdi. Azərbaycan bu istiqamətdə artıq Ağalı və Talışın simasında müsbət təcrübəyə, habelə Prezidentin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş konseptual hədəflərə malikdir. Bildiyiniz kimi, işğaldan azad olunmuş ərazilərə ”Böyük Qayıdış”ın təmin olunması Azərbaycanın 2030-cu ilə qədərki beş milli prioritetindən biridir. ”Böyük Qayıdış”a dair ”Dövlət Proqramı” da hazırlanıb. Prezident 2022-ci il 31 dekabr müraciəti və bu ilin yanvar ayının 10-da yerli televiziyalara müsahibəsində isə artıq müjdə vermişdi ki, ”2023-cü il artıq ”Böyük Qayıdış”ın ilk addımlarından biri olacaq”.

Prezident İlham Əliyev də Azərbaycan xalqına müraciətində bildirdi ki, mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurda bir çox tədbirlər keçirilib, 10 kəndin təməli qoyulub, bir çox açılışlar həyata keçirilib: ”On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır”.

> Qarabağda və Şərqi Zəngəzurda başlayan genişmiqyaslı tikinti-bərpa, quruculuq işləri ümumilikdə bütün ölkə iqtisadiyyatının inkişafına zəmin yaradacaq

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, artıq bir neçə dəfədir Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura səfər edərək, burada görülən işlərlə yaxından tanış olur. Gərgin iş qrafikinə baxmayaraq, hər iki regionda aparılan işlərə özü birbaşa nəzarət edir:** ”Bu, eyni zamanda Prezident İlham Əliyevin həm Qarabağda, həm də Şərqi Zəngəzurda görülən işlərə nə dərəcədə əhəmiyyət verdiyini və həssas yanaşdığını göstərir. Bu gün görülən işlər, irimiqyaslı layihələr nəticəsində Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydanına bənzəyir”.

Deputat bildirib ki, Prezident İlham Əliyev bölgədə infrastrukturla yanaşı, yeni iş yerlərinin yaradılması məsələsinə də xüsusi önəm verir. Bu baxımdan ”Araz Vadisi İqtisadi Zonası”nda görülən işlər xüsusi diqqət çəkir: ”Burada bir çox yeni müəssisələrin, zavodların yaradılması bölgə insanlarının işlə təmin olunmasına böyük töhfə verəcək. Prezident İlham Əliyev bölgəyə səfər zamanı Şuşada da bir sıra yeni müəssisələrin, mədəniyyət abidələrinin, o cümlədən Yuxarı Gövhər Ağa və Saatlı məscidlərinin təmirdən sonra açılışında iştirak etdi. Bu da öz növbəsində Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduğunu göstərdi. Onu da qeyd etmək lazımdır ki, bütün bu işlər Azərbaycan dövlətinin hesabına, xaricdən heç bir dəstək olmadan həyata keçirilir. Eyni zamanda bütün işlər heç bir sosial layihə təxirə salınmadan həyata keçirilir. Bu həm də bir daha onu söyləməyə əsas verir ki, Azərbaycan mərhələli şəkildə bütün məqsədlərinə ən qısa zamanda nail olacaq. Tezliklə Qarabağ və Şərqi-Zəngəzur dünyanın ən abad və gözəl bölgələrindən birinə çevriləcək. Bunun üçün bütün addımlar zamanında atılır. Məlum olduğu kimi, səfərdən sonra Ermənistan təxribata əl atdı. Azərbaycan Ordusu təxribatın qarşısını qətiyyətlə aldı. Ermənistan bilməlidir ki, bu cür təxribatlar Azərbaycanın Qarabağ və Şərqi-Zəngəzurda həyata keçirdiyi layihələrin qarşısını ala bilməz”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub





# Elə etmək olar ki, regionlara da yaxşı həkimlər getsin

## Bunun üçün onlara münasibətdə müəyyən güzəştli tədbirlər görülməli, maaş fərqli olmalıdır

**TƏBİB Bakı şəhərində fəaliyyət göstərən tibb müəssisələrində ciddi həkim çatışmazlığı olmadığını deyib. Məlumatda qeyd edilib ki, yalnız bəzi xəstəxanalarda reanimatoloq, anestezioloq və travmatoloq ixtisasları üzrə bir neçə vakant yer mövcuddur:**

“Respublikanın bir çox bölgələrində isə travmatoloq, ortoped, anestezioloq-reanimatoloq, mama-ginekoloq, nefroloq, psixiatr, narkoloq, uşaq cərrahı, uroloq, nevroloq, şüa diaqnostikası üzrə həkim (rentgen və KT üzrə) çatışmazlığı müşahidə olunur. Vaxtaşırı vakant yerlər üzrə həkimlərin işə qəbulu həyata keçirilir. Kadr çatışmazlığı qeydə alınan ixtisaslar üzrə həkimləri əməkdaşlığa dəvət edirik”.

**Tibb elmləri doktoru Adil Qeybulla sözügedən problemin həllini regionlarda işləyən həkimlər üçün xüsusi sosial müdafiə tədbirlərinin həyata keçirilməsində görür:** ”Həkimlərimizin mütləq əksəriyyəti, həqiqətən də, Bakıda və digər iri şəhərlərdə cəmləşib. Bu da ondan irəli gəlir ki, paytaxtda və bir neçə iri şəhərimizdə həyat səviyyəsi rayon yerlərinə nisbətən yüksəkdir. Kənd və rayon yerlərində isə həkimlər üçün şərait yetərincə deyil.

Ona görə də regionlarda həkim çatışmazlığını aradan qaldırmaq üçün həkimlərlə bağlı xüsusi sosial müdafiə təbdirləri həyata keçirilməlidir. Belə olarsa, rayon yerlərində də işləmək həvəsində olan həkimlərin sayı artacaq. Yəni elə etmək lazımdır ki, həkim regionlarda da işləməyə həvəs göstərsin. Bunun üçün onlara münasibətdə müəyyən güzəştli tədbirlər görülməli, belələrinə maaş başqa cür təyin edilməlidir. Bu kimi tədbirlər onları kənd yerlərində də işləməyə stimullaşdıra bilər. İkinci bir tərəfdən, səhiyyəni elə bir sistemə çevirməliyik ki, regionlarla mərkəz arasında peşəkarlıq səviyyəsində fərqlər olmasın. Bu isə həm icbari tibbi sığortanın normal tətiq edilməsindən, həm də həkimlər üçün bərabər şəraitin yaradılmasından keçir. Belə olarsa, hansısa bir həkimin rayondan durub şəhərə gələrək burada işləməyə həvəsi olmayacaq.

Qonşu Türkiyədəki kimi bütün respublika üzrə, Bakıda, regionlarda səhiyyənin peşəkarlıq səviyyəsinin eyniləşdirilməsi, yüksək səviyyəyə çatdırılması şərtdir. Başlıcası isə həkimlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmalıdır. Bu addımlar atılarsa, həkimlərin seçim edərkən əsas diqqəti paytaxta və iri şəhərlərə yönəltmələri də azalar. Təbii ki, hər kəs daha yaxşı yaşayışın olduğu yerə meyl edir, bu da onun hüququdur”.

**Şəymən**

# Tətil hara, Dubay hara..?

## AZAL-ın kampaniyası ancaq xaricdə istirahət imkanı olan ailələrin uşaqları üçün keçərlidir



**”Azərbaycan Hava Yolları” (AZAL) şirkəti yay tətilini Dubayda keçirmək istəyənlər üçün yeni kampaniya elan edib. AZAL aviaşirkətinin xüsusi təklifi sayəsində dünyanın ən sürətlə inkişaf edən şəhərində uşaqlarla istirahət daha əlçatan olacaq. Mayın 8-dən iyunun 7-dək böyüklər üçün iki aviabilet alarkən şirkət 12 yaşınadək uşaq üçün üçüncü aviabileti hədiyyə edir.**

Eyni zamanda uşaqlara Dubayın əfsanəvi hotellərində pulsuz qalmağı, həmçinin kinoteatr, əyləncə kompleksləri və şəhərin bir çox görməli yerlərinə pulsuz girişi təmin edən xüsusi ”Uşaqlara pulsuz Dubay” təklifi var. Qeyd edək ki, qarşıdan məktəblilərin yay tətili gəlir. Stressli və gərgin dərs ilindən sonra yay tətilini səmərəli keçirmək, yorğunluqdan qurtulmaq isə hər bir şagirdin arzusudur. Ancaq bir çoxları üçün bu, elə arzu olaraq qalır. Yalnız maddi imkanı yerində olan valideynlər övladlarını şagirdlərin yay tətilini səmərəli keçirməsi üçün təşkil olunan düşərgələrə göndərir. İmkansız ailələrin övladlarının bəziləri isə yay tətilini bölgələrdə yaşayan nənə-babanın yanında keçirir. Paytaxtda yaşayanlar isə 3 ay boyunca şəhərə uyğun məkanlarda, parklarda, məhəllədə, evdə televizor, kompüter, telefon arxasında keçirmək məcburiyyətində qalırlar.

Məktəblilərin yay tətilini səmərəsiz və maraqsız keçirməsi valideynləri də narahat edən problemlərdəndir. Valideynlər yay düşərgələrinin yetərincə olmaması ucbatından övladlarının yay boyu istirahət edə bilmədiklərindən şikayətlənirlər. AZAL-ın kampaniyası isə ancaq xaricdə istirahət imkanı olan ailələrin uşaqları üçün keçərlidir. Orta və aztəminatlı ailələrin uşaqları isə yenə də istirahətsiz qalacaqlar.

Mütəxəssislər isə hesab edir ki, yay tətilini səmərəli keçirməyən, dərs ilinin yorğunluğunu üzərindən ata bilməyən şagirdlər isə yeni tədris ilinə yorğun və həvəssiz başlayır.

Özəl müəssisələr tərəfindən təşkil olunan yay düşərgələrində də şagirdlərin yay istirahətini səmərəli keçirməsi üçün yüksək qiymətlər təklif olunur deyə hər kəs üçün münasib deyil. Bu o deməkdir ki, yalnız maddi imkanı yaxşı olan valideynlərin övladları bu düşərgələrdə səmərəli vaxt keçirə bilərlər.



> “Halbuki öz ölkəmizdə qısa müddətdə böyük bir yay düşərgəsi sistemini qurmaq mümkündür”

**Təhsil eksperti Elşən Qafarovun fikrincə, məktəblilərin yay tətilini səmərəli keçirməsi ilə bağlı dövlət proqramı hazırlanmalıdır.** Hazırkı vəziyyətdə sadəcə valideynlərinin maddi imkanı yaxşı olan uşaqlar yay tətilini səmərəli keçirir. Halbuki bu işi sistemli şəkildə qurmaqla daha çox uşağın yay tətilini səmərəli keçirməsini təşkil etmək mümkündür. Ölkənin səfalı yerlərində, xüsusən dənizə yaxın ərazilərdə tikilib istifadəyə verilən məktəb binalarında bunu yaratmaq olar. Bununla da ölkədə qısa müddətdə böyük bir yay düşərgəsi sistemini qurmaq mümkündür: ”Bizim turizm zonalarında, səfalı bölgələrimizdə lazımı şəraiti olan məktəblər tikilməlidir. Bu məktəblərin həyətində üzgüçülük hovuzu, yeməkxanası, ümumiyyətlə, yayda yay düşərgələri kimi istifadə olunması üçün bütün lazımi şəraiti, infrastrukturu olmalıdır. Sovet dövründə yay düşərgələrinin böyük əksəriyyəti Bakıda, xüsusilə də Mərdəkan, Şüvəlan, Buzovna, Bigəhdə yerləşirdi. Hazırda sözügedən yay düşərgələrinin bir hissəsində məcburi köçkünlər məskunlaşıb. Bir hissəsi isə ayrı-ayrı məmurlar tərəfindən özəlləşdirilib. Hesab edirəm ki, yay düşərgələrini bərpa etmək üçün ilk növbədə bu yerlər tamamilə boşaldılmalıdır. Özəlləşdirilmiş düşərgələr geri alınaraq Təhsil Nazirliyinin balansına verilməlidir. Ölkədə yay düşərgələrinin bir şəbəkəsi yaradılmalıdır. Qiymətlər də hazırkı yay düşərgələrindən bir necə dəfə ucuz olmalıdır ki, maddi imkanı aşağı olan ailələrin uşaqları da bu yay düşərgələrinə qatıla bilsinlər.

Yaxud da dövlət hesabına qarşılamaq olar. Çünki dövlət sosialyönümlü büdcəyə malikdir. Gələcəyimiz olan uşaqlar üçün yay düşərgələrinin düzgün təşkil olunması onların həm mənəvi, həm də psixoloji, tərbiyəvi cəhətdən təkmilləşməsi üçün çox böyük fürsətdir”.

*Ekspert qeyd edib ki, hazırda işğaldan azad edilən ərazilərdə quruculuq işləri gedir.* Azad olunmuş ərazilərdə yay düşərgələrinin salınması məktəblilərin istirahəti üçün əlverişli olardı. İşğaldan azad olunan ərazilərin infrastrukturu qurularkən, bu bölgələrdə, xüsusilə də turizm ərazilərində yay düşərgəsi şəbəkəsinin yaradılması və ya təhsil müəssisələrinin bazasında yay düşərgələrinin fəaliyyəti üçün şəraitin nəzərə alınması vacibdir: ”Belə düşərgələri səfalı təbiəti, çayı, meşəsi olan ən ucqar dağ kəndlərində də yaratmaq olar. Yay düşərgələrini yaradarkən Rusiya, Qazaxıstan və digər ölkələrin təcrübəsindən yararlanmaq mümkündür. Hətta bəzi məktəblərə maliyyə vəsaiti ayırmaq olar ki, onlar həm də yayda düşərgə kimi fəaliyyət göstərsinlər”.

**E.Qafarovun dediyinə görə, postsovet dövründə təlim nailiyyətləri yüksək olan şagirdlər dövlət hesabına yay düşərgələrinə göndərilirdi:** ”Bu gün də bu təcrübədən istifadə etmək olar. Ümumilikdə şagirdlər dövlət hesabına yay düşərgələrinə göndərilsə daha yaxşı olar. Bu zaman yay düşərgələrindən yararlanan şagirdlərin sayı daha çox olar”.

**Şəymən Bayramova**

# “Ən uğurlu" abortlar da ciddi fəsadlar yaradır

## Qadın mütləq şəkildə vaxtaşırı tibbi müayinədən keçməlidir ki, hər hansı problem varsa qarşısı alınsın



**Bakı Baş Səhiyyə Mərkəzinin tabeliyində fəaliyyət göstərən 2 nömrəli Qadın Məsləhətxanasının şöbə müdiri Bilqeyis Qaragöz selektiv abortların sonsuzluğa gətirib çıxarması təhlükəsindən danışıb.**

“Ən uğurlu” abort da təhlükəlidir”, deyən B.Qaragöz bildirib ki, abortların qarşısının alınması üçün əsas profilaktik tədbirlərdən biri ailə planlamasının həyata keçirilməsidir: ”Hamiləlikdə optimal interval vaxtın müəyyənləşdirilməsi, ailədə uşaq sayının planlaşdırılması, erkən və gec doğuşların qarşısının alınması yolları ilə ailə planlanmasını düzgün formalaşdırmaq mümkündür. Çox təəssüf ki, bu gün ölkəmizdə buna əməl etməyən insanların sayı az deyil. Bütün hallarda qadınlar qadın məsləhətxanalarına tez-tez müraciət etməlidir, abort, ailə, hamiləlik planlaması kimi mövzularda sahə ginekoloqları ilə müntəzəm işləməli, tövsiyələr almalıdırlar. Bu, çox önəmli məqamdır. Bunu nəzərə almayan ailələrdə xoşagəlməz hadisələrin olması sözsüz ki, qaçılmazdır. Bu prosesi müasir kontrasepsiya üsulları ilə həyata keçirmək olar. Düzgün seçilmiş kontrasepsiya üsulları nəinki arzuolunmaz abortlardan, hətta qadınlarda olan digər xəstəliklərin də vaxtında aşkarlanmasına səbəb ola bilər”. Hamiləlik planlıdırsa, doğulan uşaqların da arzulanan olacağını bildirən B.Qaragöz ”ən uğurlu” abortların da ciddi fəsadlara gətirib çıxardığını bildirib:

- Ümumiyyətlə, abortlar 2 qrupa ayrılır; erkən və gec abortlar. Hər bir halda qadın sağlamlığı üçün təhlükəli bir prosesdir. Lakin gec həyata keçirilmiş abortlar daha ağır fəsadlar verə bilir. Abortlar sonsuzluğun əsas səbəblərindən biridir. Çünki abort zamanı uşaqlıq və uşaqlıq boynu ciddi zədələnir, uşaqlıq qanaxmaları, xroniki, kəskin iltihabi xəstəliklər, aybaşı tsiklinin pozulması, sonrakı hamiləliklərin sona çatdırılmaması, hətta sonrakı hamiləliklərin baş tutmaması, sonsuzluğa qədər gətirib çıxara bilər.

Selektiv abort üzrə də ölkədəki vəziyyətin ürəkaçan olmadığını, abortun bu növü üzrə göstəricilərin artdığını diqqətə çatdıran şöbə müdiri bunun təbii cinsi tarazlığın pozulmasına səbəb olacağını, nəticədə isə cəmiyyət üçün təsirsiz ötüşməyəcəyini bildirdi: ”Son illər ölkəmizdə hər 100 qız üçün 116 oğlan doğulur. Bu isə təbii cinsi tarazlığın pozulması deməkdir. Əlbəttə ki, abortun hər növü qadınlar üçün təhlükəli və çox ziyanlıdır, lakin selektiv abort qadınların həyat və sağlamlığı üçün xüsusilə ağır prosesdir, onlar üçün həm psixoloji stress, həm də fiziki zorakılıq deməkdir. Bu isə qadınlarda abortdan sonrakı sindrom adlanan vəziyyətin yaranmasına səbəb ola bilər.

Bir daha qeyd etmək istəyirik ki, abortu, o cümlədən selektiv abortu ancaq müəyyən istisna hallarda etmək olar”.

**B.Qaragözün fikirləri ilə razılaşdığını deyən həkim-ginekoloq Fəxranə Hüseynzadə ”Şərq”ə açıqlamasında qeyd etdi ki, qadınlar vaxtaşırı tibbi müayinədən keçməlidirlər:**

- Biz həkimlər bunu daim xanımlarımızın diqqətinə çatdırırıq. Qadın mütləq şəkildə vaxtaşırı tibbi müayinədən keçməlidir ki, hər hansı problemin yaranma ehtimalı varsa, bu, ilkin mərhələdə müəyyənləşsin və qarşısı alınsın. Lakin təəssüf ki, xanımlarımız həkimə bəzən çox gec müraciət edir. Uşaqlığın, uşaqlıq boynunun xərçəngi, yumurtalıqlarda kistoz və sair bu kimi patologiyaların aradan qaldırıla bilməsinin səbəbi müayinə və müalicədə gecikmələrdir. Hamilə xanımlar da həmçinin mütəmadi həkim nəzarətindən keçməlidirlər. Plansız hamiləliklər ağır fəsadlara gətirib çıxarır. Hamiləliyin məqsədli şəkildə, süni yollarla pozulması halları artdıqca, qadın orqanizmində fəsadlar da artır. Selektiv abortlarsa demoqrafik mənzərəni mənfiyə doğru dəyişir. Qadın hamiləlikdən öncə də, hamiləlik dövründə də ictimaiyyət və millət qarşısında ciddi məsuliyyət daşıdığının fərqinə varmalıdır.

**Məlahət Rzayeva**




## "Nar"dan yeni xidmət: "İmzalı zəng"

**“Nar”, abunəçiləri üçün zənglərə şəxsi imzasını qoymağa imkanı verən yeni ”İmzalı zəng” xidmətini təqdim edib. Belə ki, sizin zənginizi qəbul edən şəxs nömrəniz ilə yanaşı, təyin etdiyiniz mətni yəni, imzanızı da görə bilir. Beləliklə, kim olduğunuz və nə üçün zəng etdiyiniz dərhal anlaşılır.**

”İmzalı zəng” xidmətinə qoşulmaq üçün abunəçilər 5111 nömrəsinə SMS vasitəsilə START yaza və ya *511#YES şifrəsini yığıb açılan meynuda 1 yazaraq abunəliklərini təsdiqləyə bilərlər.

Korporativ tariflər üçün ”İmzalı zəng” xidmətinin aylıq abunə haqqı 1,99 AZN, öncədən ödənişli tariflər üçün isə gündəlik istifadə haqqı 0,10 AZN təşkil edir. Həmçinin, qeyd edilən xidməti sınaq müddətində yoxlamaq imkanı da var: korporativ abunəçilər 30 gün, fərdi istifadəçilər isə 3 gün pulsuz istifadə edə bilərlər. ”İmzalı zəng” xidməti haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

*Qeyd edək ki, ”Nar” müştəriyönümlülük siyasətinə sadiq qalaraq, abunəçilərinə hər zaman innovativ xidmətlər təqdim edir. Mobil operatorun bütün məhsulları haqqında nar.az saytından ətraflı məlumat əldə edə bilərsiniz.*

## Nəfəs boşandığı üçün peşman deyil

“Həm sənətim var, öz pulumu qazanıram, irəliyə gedirəm”



**Müğənni Nəfəs evlənib boşanması haqda danışıb.**

”Şərq” xəbər verir ki, bu barədə o, ”Xəbər ətər” verilişində qonaq olarkən söz açıb. Nəfəs deyib ki, boşandığı üçün peşman deyil: ”Qadınla kişini ayırmaq yaxşı deyil. Düşünürlər ki, yaxşı işdir. Bir müddət sonra görürlər ki, ailə dağılır, kişi deyir ki, mənə demişdilər, belə etməlisən. Düşünürəm ki, udmuşam. Şansım odur ki, iki övladım var. Həm də sənətim var, öz pulumu qazanıram, irəliyə gedirəm”.

**Samirə**

## "Atam onun əri deyil"

Hacının oğlu Şəbnəmi biabır etdi



**Müğənni Şəbnəm Tovuzlunun uzun müddətdir münasibətdə olduğu Hacı Ramilin ilk evliliyindən olan oğlunun görüntüsü yayılıb.**

”Şərq” xəbər verir ki, İlkin adlı gənc atası ilə görüntülərini tiktokda paylaşıb.

İzləyicilər onun atasının Ş.Tovuzlunun oğlunun atası Hacı Ramil olduğunu görərək ”Şəbnəm Tovuzlunun həyat yoldaşıdır” kimi şərhlər yazıb. İlkin isə bu rəylərə etiraz edərək ”Əri deyil”, - deyə bildirib.

Həmçinin Tovuzlunun ünvanına təhqiramiz ifadələr səsləndirib. Bir müddət sonra isə o, bu paylaşımları silib.

**Samirə**

## "Allah günahımdan keçsin"

Kənan MM itə sosiskada zırpaket verib



**”Kirayədə qalırdım, qonşumuzun Riçed adlı iti var idi. Amerikan cinsindən idi. Böyük it idi. Məhəllədə bütün uşaqlar itlə oynayırdı. Amma itin məni görməyə gözü yox idi, çox pis aqressiyası vardı”.**

”Şərq” xəbər verir ki, bu sözləri ”Utandım yerinə” verilişində rejissor Kənan MM deyib. O, gənclik illərində yaşadığı bir hadisədən danışıb: ”Həmin itin ad gününü qeyd edirdilər. Biz beşinci mərtəbədə qalırıq. İtin sahibi Nataşa isə 4-cü mərtəbədə yaşayırdı. Yeyib-içiblər, it yaddan çıxıb. Mart ayıdır, zırpaketlər var idi. Tələbə idik. Gördüm ki, Riçed oradadır. Nə isə hürdü, sosiskanı itin qabağına atdım. Bir az ona baxdı, bir az mənə. Elə bil dedi ki, Kənana etmədiyim şərəfsizlik qalmayıb, bu mənə yemək verir. Ondan sonra oldu pişik. Allah günahımdan keçsin, birdən Riçedin etdiyi pisliklər yadıma düşdü. Cavan idik. Axırıncı sosiska qalmışdı, cibimdə də zırpaket var idi.

Onları bir yerdə atdım itin qarşısına. Birdən səsini eşitdim, bir də itin səsi gəldi. Qorxdum, bilmədim ki, nə baş verdi. İki gün sonra Nataşa gəldi, it də həmin it idi, amma bir az sınıxmışdı. İt məni gördü gizləndi. Nataşa dedi ki, çağırma, iki gündür yemək yemir, qulaqları eşitmir. İt sonra düzəldi. Nataşa Azərbaycan dilində güclə danışırdı. Əsgərliyə getdim, sonra məşhurlaşdım.

Nömrələrimiz də var idi. Çingiz Əhmədovun ”Yeriniz məlum” verilişində həmin hadisəni danışdım. Üstündən 10-15 il keçmişdi, Nataşa bunu görüb, eşidib. Veriliş qurtaran kimi mənə rus dilində söyüşlər yazdı. İndi utandım, o vaxt utanmırdım”.

**Samirə Ərəblinskaya**

# Gediş haqlarında fərq olacaq

## Bakıda elektrik mühərrikli avtobuslar sınaq müddətindədir

**Ötən ay Bakında marşrut xəttinə ilk elektrik mühərrikli avtobus buraxılıb.**

**Çindən alınan avtobus hazırda sınaq müddətindədir.**




### Layihəni bir sıra dövlət qurumları da bəyənib

Bəs, Bakıda bu avtobuslardan istifadə əlverişli ola bilərmi? Gediş haqlarında fərq olacaqmı?

Mövzu ilə bağlı nəqliyyat üzrə ekspert Elməddin Muradlı Bakupost.az -a bildirib ki, test mərhələsində olan layihə müvafiq qurumlar tərəfindən bəyənilsə də, hələ ki konkret qərar verilməyib:

”Bakıda bu cür avtobuslardan istifadə uyğundur. Hətta buna görə ”Xaliq Faiqoğlu” şirkəti ilə bir layihə hazırladıq. Layihəni bir sıra dövlət qurumları da bəyənib. İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı Nəqliyyat Agentliyi bu layihə ilə tanış olub. Hələ ki konkret cavab verilməyib. Pilot layihə kimi də qəbul oluna bilərdi. Sadəcə, belə müsbət, ətraf mühiti çirkləndirməyən, insanların rahatlığına xidmət edən layihələr bəzən hansısa kabinetlərdə ilişib qalır”.

Ekspertin sözlərinə görə, yanacaq işi ilə məşğul olanlar elektrik mühərikli nəqliyyat vasitələrinin ortaya çıxmasını qısqanclıqla qarşılayacaq. Ancaq buna baxmayaraq, o, artıq bu sistemə keçməli olduğumuzu vacib sayır:

”Bu, dünyada gedən bir prosesdir. Hər halda buna keçid etməliyik. İndiyə qədər yanacaq və dizellə işləyən avtobuslar fəaliyyət göstərib. Amma BNA sıxılmış təbii qazla işləyən avtobuslara keçid edib. Çoxları bunun təhlükəli olduğunu, partlaycağını deyirdi. Zaman bunun əksini göstərdi. İndi isə qazla işləyən avtobuslara tam keçid etməmiş, elektrik mühərrikli avtobuslar qapımızın ağzındadır”.

E.Muradlı bildirib ki, bu avtobuslara keçid etdikdə gediş haqlarında müəyyən fərqlər olacaq:

”Bu avtobusların biri 1 milyon manata başa gəlir. Sadəcə, bir hissəsini dövlət, bir hissəsini daşıyıcı şirkətlər qarşılasa, buna keçid edə bilərik. Qiyməti baha olduğu üçün gediş haqlarında da fərq olacaq. Ümumilikdə, qiymətləri Tarif Şurası tənzimləyir. Uyğun variant seçib işləyə bilərlər. Amma bir nüansı nəzərə çatdırım ki, bu gün Bakı-Sumqayıt arasında 100 mindən çox insan get-gəl edir. Rəsmi daşımada isə cəmi 5 avtobus işləyir. Ona görə də, insanlar qeyri-rəsmi daşımanın ümidinə qalıb. Onlar da 1 manatdan aşağı deyil. Bu layihədə isə Bakı-Sumqayıt arasında interval üzrə 20 elektrik mühərrikli avtobusun işləməsi nəzərdə tutulub”.

E.Muradlı sonda yanacaqla işləyən avtobusların ətraf mühitə ziyanından da danışıb:

”Bir avtobus gün ərzində ən azı 20-30 dəfə dövrə vurur. Hər dövrədə atmosferə müəyyən miqdarda zəhərli qazlar atılır. Elektrik mühərrikli avtobuslar isə zərərsizdir. Düzdür, Fransada elektrik mühərrikli avtobusların yanması halı baş verib. Ona görə də, servis xidməti, zəmanəti və s. məsələlər nəzərə alınmalıdır”.

Ekspert mövcud sistemdə bəzi sahələr üzrə çatışmazlıqlara da diqqət çəkib:

”BNA çox pis ənənəni ortaya qoyub. ”Baku Bus” yeni yarananda cəmiyyət ona böyük ümidlə yanaşdı. Düşündü ki, dövlət şirkətidir, neqativ hallar baş verməyəcək. Əksinə, ilk çökən dövlət şirkəti oldu. Ora qoyulan rəhbər fikirləşdi ki, nəyimə lazımdır, dövlətin şirkətidir, yeyib dağıdacam. ”Baku Bus” MMC-nin tabeliyndə 1000-ə yaxın avtobus var. Onların 400-ü hazırda xarab vəziyyətdə qarajda yatır. Çünki işi düzgün qura bilmədilər, yeyinti hallarına yol verdilər. Texniki xidmətlər göstərilmədi, yaxud ehtiyat hissələrini sənəd üzrə alsalar da, ya gətirib çıxarmadılar, ya da satdılar. Amma özəl şirkət bu cür yanaşmır. Çünki özünə ziyan vurmaq istəmir, daha da inkişaf etməyə çalışır”.

**TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN**

Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinin Ləgvetmə komissiyasının 14.03.2023-cü il tarixli, 14/03/2023 saylı sifarişi ilə Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinə məxsus aşağıdakı rəsm əsərlərinə dair 12 may 2023-cü il tarixinə, saat 10:00-a təyin edilmiş hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmamış, bununla əlaqədar olraraq təkrar hərrac 30 may 2023-cüil tarixinə, saat 10:00-a təyin edimişdir.

.

| S/S | Rəsm əsəri | **Rəssamın adı** | **Ölçü** | **Hərrac dəyəri** | **Behin məbləği** |
|---|---|---|---|---|---|
| 1 | Şəkil ” Bakı” | Həsən Daşdəmir | 60x82 | 1.020 | 51 |
| 2 | Şəkil ”Hind Motivi” | M.Abdullayev | | 731 | 37 |
| 3 | Şəkil ”Köhnə məscid” | Anar Hüseynzadə | 60x48.5 | 297,5 | 15 |
| 4 | Şəkil ”Kəndimiz” | A.Mirzəyev | 60x80 | 425 | 21 |
| 5 | Şəkil ”Etyud Pambıqçı” | Böyükağa Mirzəyev | 28x18 | 680 | 34 |
| 6 | Şəkil ”Qız qalası” | Təbriz Abdullayev | 55x118 | 1.445 | 72 |
| 7 | Şəkil ”Bakı” | Sübhan Məmmədov | 80x120 | 1.275 | 64 |
| 8 | ”Mənzərə” | Eyyub Məmmədov | 25.5x34 | 297,5 | 15 |
| | | **Cəmi:** | **6.171** | **309** | |

İlkin hərracda iştirak üçün satış qiymətinin 5%-i məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

**Hərrac addımı** - elan edilmiş qiymətin ən azı 1 %-i qədər olmalıdır.

**QEYD: Əlavə məlumat almaq üçün ”Əmlak Hərrac Mərkəzi” MMC və sifarişçinin əlaqə telefonları ilə əlaqə saxlaya bilərsiniz.**

**Tel: (+99450) 210-66-47; Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35**

**Elan**

Məsimov Ziyafər Əsgər oğluna aid 2 ədəd avtomobilin texniki pasportu, ev sənədi, etibarnamə, disklər itmişdir. Bunları tapan şəxsi mükafat gözləyir. Əlaqə nömrəsi: 077 505-82-20

**Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları ASC səhmdarlarının nəzərinə!**

30 iyun 2023-cü il saat 15:00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyinə müzakirə üçün aşağıdakı məsələlər daxil edilir:

1. 2022-ci ildə Cəmiyyətin fəaliyyəti haqqında İdarə Heyətinin hesabatı.
2. Müşahidə Şurasının və Maliyyə-Təftiş Komissiyasının hesabatı.
3. Cəmiyyətin illik balansının və auditor hesabatının təsdiq edilməsi.
4. Cəmiyyətin İdarə Heyətinin tərkibinin seçilməsi.
5. Müşahidə Şurasının və Maliyyə-Təftiş Komissiyasının tərkiblərinin seçilməsi.
6. Dividendlər haqqında.
7. Cari məsələlər.

Əlaqə telefonu: (012) 514-46-20, (055) 213-58-36.

Ünvan: Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 2.

BYGEA ASC-nin İdarə Heyəti.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi:**
**“Muğanbank” ASC baş ofis**
**Kod: 506162**
**VÖEN: 1400122681**
**M/H: AZ41NABZ01350100000000018944**
**S.W.İ.F.T.: MUGAAZ22**
**AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00**
**VÖEN 1300414651 İndeks: 0330**

**Tirajı: 1550 Sifariş: 1169**



## Siqaret qadağaları sərtləşir

### Portuqaliya hökuməti sağlam nəslin formalaşmasını hədəfləyən qanunu təsdiq edib

**Portuqaliya hökuməti 2040-cı ilədək siqaret çəkməyən yeni, sağlam nəslin formalaşmasını hədəfləyən qanunu təsdiq edib.**

Qanun siqaret çəkənlərə və siqaret istehsalçılarına qarşı sərt qaydalardan ibarətdir. Portuqaliya hökuməti siqaretdən istifadəni məhdudlaşdıran qanun layihəsini 2007-ci ildə qəbul edib. Hazırda isə qanuna daha bir neçə sərt dəyişikliklər əlavə edilib. Yeniliklər siqaretdən istifadə üçün ayrılmış sahələrin və tütün məmulatlarının satışının qadağan edildiyi satış nöqtələrinin də azaldılmasını nəzərdə tutur. Hökumət qanuna dəyişiklikləri "2040-cı ilədək dumansız nəsil" sözləriylə təqdim edib. Qanuna dəyişikliklər Nazirlər Şurası tərəfindən təsdiqlənib və 23 oktyabrdan etibarən icraya yönələcək. Qanuna görə, ölkədəki bütün restoran, bar və kafelərdə qapı, pəncərə və örtülü teraslar da daxil, məktəblər, xəstəxanalar, idman zalları, dayanacaqlar və digər ictimai iaşə obyektləri, idarə və müəssisələrdə siqaret çəkmək 2024-cü ilin yanvar ayından etibarən qadağan ediləcək. Hökumət hətta elektron siqareti də yasaqlayır. Elektron siqaretlərin üzərinə sağlamlığa ziyanlı olduğunu bildirən mətnlər yazılacaq. Hətta ətirli tütün məmulatlarının satışı da qadağan ediləcək.

**Məlahət**

## Pentaqon gələcək müharibələrdən danışdı

### Havada pilotsuz döyüş maşınları peyda olacaq





**"10-15 ildən sonra dünya üzrə quruda, suda və havada pilotsuz döyüş maşınları peyda olacaq".**

Oxu.az xəbər verir ki, bu sözləri Pentaqonun Baş Qərargah Rəisləri Komitəsinin rəhbəri Mark Milli deyib.

Millinin sözlərinə görə, əgər bu baş verməsə, o ümid edir ki, Amerika ordusunda ən azından qismən pilotlu silahlı qüvvələr mövcud olacaq.

"Qarşıdakı 10-15 ildə biz yerdə pilotsuz hava qüvvələri, hərbi dəniz qüvvələri və quruda zirehli qüvvələr görəcəyik", - deyə Milli qeyd edib.



# Dəhşətli həqiqət

## 29 il sonra ortaya çıxdı

### Ögey qızına təcavüz suçuyla uzun müddət həbsxanada yatdı





**Ögey qızına təcavüz suçuyla 1994-cü ildə həbs edilən Patrik Broun 29 il sonra azadlığa buraxılıb. "Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, hadisə ABŞ-nin Orlean ştatında baş verib. 29 il əvvəl 6 yaşlı qızcığaza təcavüz cinayətinə görə həbs edilmiş ögey atanın azadlığa çıxması yerli məhkəmə hakimi Celvin Jonsonun məhkumluğunun aradan qaldırılması haqqında qərarından sonra mümkün olub.**

Hakimin qərarıyla Patrik Broun azadlığa buraxılıb. Ögey atası tərəfindən təcavüzə uğradığı zənn edilən şəxs də orada olub təsirli çıxış edib.

Vəkil illərlə həm kiçik qıza, həm də ögey ataya qarşı ədalətsizlik edildiyini, həqiqətin görməzdən gəlindiyini söyləyərək dövlətin onlara dəymiş mənəvi zərəri ödəməsini tələb edib. Təcavüzə uğramış qız 20 il ərzində məhkəməyə 100-dən artıq məktub yazıb, təcavüzkarın ögey atası olmadığını qeyd edib. Qızın dediyinə görə, ona təcavüz edən ailənin başqa bir üzvü olub. Lakin məhkəmənin ilk iclasında ifadə verməyə çağırılan qızcığaz həmin vaxt danışa biməyib, burnu qanadığı üçün onu məhkəmə zalından çıxarıblar. Başqa dəlillər tapılmadığından ögey ata cinayətdə təqsirli bilinərək həbs edilib. Lakin qızcığaz uzun illər məhkəməyə müraciət edərək əsl cinayətkarın ögey atası olmadığını israrla bildirib. Nəhayət, məhkəmə dəlillərin yenidən toplanmasına qərar verib, bununla da Patrik Brounun həbsdən azad edilməsi reallaşıb. Ögey atası həbsdən buraxıldığında artıq gənc qız olan zərərçəkmiş bunları söyləyib: "Dinlədiyiniz üçün təşəkkür edirəm. Sonunda məni dinlədiyiniz üçün təşəkkürlər Ailəmizin sevinməsinə yardım etdiyiniz üçün təşəkkürlər. Mənə atamı geri verdiyiniz üçün təşəkkürlər!".

**Məlahət**



## "Bütün cütlüklər arasında mübahisə olar"

### Ronaldonun anası ayrılıq iddialarına cavab verib

**Ayrılacaqları ilə bağlı söz-söhbətləri dolaşan Kriştian Ronaldo və Corciya Rodriges haqqında yeni açıqlama yayılıb. Bu dəfə sükutu portuqaliyalı futbolçunun anası pozub.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Maria Dolores Aveiro cütlüklə bağlı xəbərlərin həqiqəti əks etdirmədiyini bildirib. Averiro, "Bütün cütlüklər arasında mübahisə olar. Bu qədər... Çıxan xəbərlərin hamısı yalandır", - deyə bildirib.

Corciya Rodriges də Ronaldodan ayrılması xəbərindən sonra "Qısqanclıqdan şayiələr uydurur, dedi-qodu yayırlar və axmaqlar da buna inanır" deyə paylaşım edib.

**Turan**

## Qapını üzünə çırpdı

### Afflekin CeyLoya etdiyi kobudluq diqqət çəkdi



**Dünya ulduzu Cennifer Lopezlə aktyor həyat yoldaşı Ben Afflektin münasibətlərində problem olduğunu əks etdirən yeni görüntülər yayılıb.**

Axşam.az xəbər verir ki, videoda CeyLo ilə Afflek qəhvə içmək üçün dayandıqdan sonra maşına doğru gediblər. Paparassilərin onları izlədiyini görən aktyor, xanımı üçün maşının qapısını açsa da, əsəbi halda onu çırparaq bağlayıb.

Görüntü sosial media seqmentində yayılaraq müzakirələrə səbəb olub. Bəzi izləyicilər Affleki hərəkətinə görə qınayıblar. Bəziləri isə davamlı olaraq təqiblərə məruz qaldığı üçün bezmiş və əsəbi olduğunu bildiriblər.

İddialar arasında cütlüyün münasibətlərində problemlərin olması da yer alıb. Belə ki, ötən günlərdə baş tutan "Ana" filminin qala gecəsində ikilinin arasında gərginlik yaşanmışdı. Sonda öpüşərək kameralara poz versələr də, izləyicilər onların səmimiyyətinə inanmamağa başlayıb.




## Bill Qeytsdən 3 həyat dərsi

**Dünyanın ən zəngin insanlarından biri olan "Microsoft"un qurucusu Bill Qeyts texnologiya dünyasına verdiyi töhfələrlə yanaşı, həyat haqqında dediyi sözlərlə də tez-tez gündəmə gəlir.**

Bill Qeytslə 8 il işləmiş insan resursları mütəxəssisi Kris Uilyams Qeytsdən öyrəndiyi həyat dərslərini "Insider"lə bölüşüb.



**1. Cavabları axtarın**

Hər mövzunu dərindən araşdıran Qeyts maraqlı olmağın vacibliyini vurğulayır. Maraq hissi yaşlandıqca artan Qeyts heç bir detalın gözdən qaçmasına imkan vermir.

**2. Səhvləri aşkar edin**

Səhvlər inkişafın qarşısında ən böyük maneədir. Hətta irimiqyaslı işlərlə məşğul olanda belə, ən kiçik səhvə göz yummamaq böyük əhəmiyyət kəsb edir. Səhvlərə məhəl qoymamaq əvəzinə onları düzəltmək işlərin daha səmərəli işləməsini təmin edəcək.

**3. Diqqəti böyük şəklə yönəldin**

Villiamsın fikrincə, Qeytsin ən böyük istedadlarından biri xaosdan nizam yaratmaq və onu görmək bacarığıdır. Dəyişənlər arasında ən mühüm amilləri ortaya qoyan Qeyts böyük mənzərəni bir anda görməyi, eyni zamanda detalları da gözdən qaçırmamağı təklif edir.

**Turan**

## Qaxda inək maşını əzdi




**Qaxda inək maşının üzərinə çıxaraq əzib.**

Lent.az bildirir ki, hadisə yerində olan şəxslər avtomobilin üzərinə çıxan inəyi düşürüblər.

Lakin buna baxmayaraq avtomobilə ciddi ziyan dəyib.

## Xəbəriniz olsun!

### Telefondan 50 dəqiqə istifadə beyinə təhlükəlidir



**Alimlər cib telefonlarının beyin fəaliyyətinə təsir etdiyini aşkar ediblər. Ancaq bu təsirin nə dərəcədə dəqiq olduğu elmi-tibbi sübut edilməyib.**

"Medicina" xəbər verir ki, mobil telefonların beyinə və ümumiyyətlə, insan sağlamlığına tam olaraq necə təsir etdiyi ilə bağlı müzakirələr uzun müddətdir ki, davam edir. Mobil telefonlardan gələn radiasiyanın bəzi insanlarda beyin şişlərinə səbəb ola biləcəyinə dair ehtimallar var.



Lakin telefon istehsalçıları bu fərziyyə ilə qətiyyən razılaşmırlar. Elm isə bunu qəti şəkildə təsdiq və ya təkzib edə bilməz.

London Universitet Kollecində Koqnitiv Neyrologiya İnstitutunun apardığı yeni araşdırma, cib telefonundan 50 dəqiqə ardıcıl istifadə etdikdən sonra beyində aktivliyin əhəmiyyətli dərəcədə artdığını sübut edib.

Alimlər cib telefonlarından müntəzəm və uzun müddətli istifadənin beyin şişi riskini 40% artırması ilə bağlı ifadənin doğruluğunu yoxladıqları zaman bu qənaətə gəliblər.

Bununla belə, alimlər elektromaqnit şüalanmasının kanserogen təsirlərini hələ tam açmayıblar.

Ancaq onlar qəti şəkildə müəyyənləşdirib ki, beyin radiasiyadan təsirlənir və həqiqətən də ona reaksiya verir, yəni mobil telefonlar əslində beyinə təsir edir.

Tədqiqatçı- professor Patrik Haqqardın sözlərinə görə, əgər sonrakı iş cib telefonlarından gələn siqnalların beyin metabolizminə birbaşa təsir etdiyini təsdiqləsə, onda biz yalnız dəqiq olaraq hansı təsirin olduğunu öyrənməli olacağıq. bu insan sağlamlığına səbəb olur.